QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 237 (5468) 26 dekabr 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik

# Əhalinin sosial rifah halının yaxşılaşdırılması dövlətin diqqət mərkəzindədir!

## *Prezident İlham Əliyev "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Sərəncam imzalayıb*



Dekabrın 25-də Prezident İlham Əliyev "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, minimum aylıq əməkhaqqının məbləği 2018-ci il yanvarın 1-dən 130 manat müəyyən edilib.

Nazirlər Kabinetinə dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli üzrə aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bu Sərəncama uyğunlaşdırmaq, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin, o cümlədən maaşları Vahid Tarif Cədvəli ilə tənzimlənən işçilərin əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi və əməkhaqlarının artırılması barədə təkliflərini hazırlayaraq üç ay müddətinə Prezidentə təqdim etmək tapşırılıb.

İlham Əliyev: "Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir"



3

"Xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər"



3

IDEA Heyvanlara Qayğı Mərkəzində yoqa üzrə ustad dərsi keçirilib



4

Azər Əliyev: "Azərbaycan idman ölkəsi olduğunu bu il qazanılan uğurlarla bir daha təsdiqlədi"



4

Bakıda "Şərqlə Qərbin qovşağında yeni enerji və kommunikasiya imkanları" mövzusunda konfrans keçirilib




5

Baş nazirin müavini: "Ağdərənin yeni azad olunmuş ərazisində salınmış şəhərcik ikinci qayıdışdır"



7

8

Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunması təkcə İslam aləmi üçün deyil, bütövlükdə bəşəriyyət üçün böyük önəm daşıyır



13

Azərbaycan Ordusunun gücü işğalçıları vahimədə saxlayır!



16

"Sərhədçi" komandası çövkən milli atüstü oyunları üzrə "Prezident Kuboku" turnirinin qalibi olub



# Azərbaycan dövləti mədəniyyətin inkişafına böyük diqqət və qayğı göstərir

*Prezident İlham Əliyev Xalq Artisti Fərhad Bədəlbəyliyə "İstiqlal" ordeni təqdim edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Xalq Artisti, görkəmli pianoçu Fərhad Bədəlbəyliyə "İstiqlal" ordenini təqdim edib.***

Prezident İlham Əliyev çıxış edərək bildirib ki, Fərhad Bədəlbəyli həm peşəkar musiqiçi, həm gözəl bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinə çox böyük töhfələr verib:

"Hörmətli Fərhad müəllim, mən sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir ki, xalqımızı sənətinizlə sevindirirsiniz, həm peşəkar musiqiçi, həm gözəl bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinə çox böyük töhfə verirsiniz. Siz gənc yaşlarınızdan dünyada da Azərbaycanı ləyaqətlə təmsil edirsiniz, Azərbaycan musiqi sənətini təbliğ edirsiniz. Bildiyimə görə, hələ 50 il bundan əvvəl beynəlxalq müsabiqələrdə laureat adına layiq görülmüsünüz və beləliklə, öz istedadınızı bütün dünyaya nümayiş etdirmisiniz.

Siz həm bəstəkar, həm peşəkar musiqiçi kimi dünya miqyasında öz layiqli yerinizi tuta bilmisiniz və Azərbaycan xalqı sizi sevir və sizi yüksək qiymətləndirir. Siz gənc kadrların hazırlanmasında çox böyük iş görürsünüz. Bakı Musiqi Akademiyasının rektoru kimi bir çox istedadlı gənc kadrların hazırlanmasında sizin çox böyük əməyiniz olubdur. Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri kimi, demək olar ki, bu festivalın dünya miqyaslı mədəni tədbirə çevrilməsində sizin xüsusi rolunuz var. Şadam ki, bu gün Azərbaycan bütün istiqamətlər üzrə beynəlxalq tədbirlərin keçirilməsində öz töhfəsini verir və ölkəmizdə həm siyasi, iqtisadi, həm də idman və mədəni tədbirlər yüksək səviyyədə təşkil olunur.



Bildiyiniz kimi, ulu öndər Heydər Əliyev sizin fəaliyyətinizə həmişə çox böyük diqqət və qayğı göstərirdi. Bilirəm ki, sizin əməyinizi, sənətinizi yüksək qiymətləndirirdi, sizi bir insan kimi, bir gənc kimi də çox sevirdi. Siz bunu yaxşı bilirsiniz, mən də yaxşı bilirəm. Biz bir-birimizi çoxdan tanıyırıq və mən sizi çox gözəl insan kimi tanıyıram. Nəinki görkəmli mədəniyyət xadimi, gözəl, vətənpərvər, prinsipial, xeyirxah insan kimi siz Azərbaycan xalqının sevgisini qazanmısınız. Mən də çox şadam ki, uzun illər biz sizinlə çox yaxın münasibətlərdə olmuşuq və bu gün də bu, belədir. Hələ sovet vaxtında siz gənc ifaçı kimi SSRİ Xalq Artisti adına layiq görülmüsünüz. O da əlbəttə ki, sizin istedadınızın sovet məkanı tərəfindən yüksək qiymətləndirilməsi demək idi. Bilirəm ki, müstəqillik dövründə sizin çoxsaylı xarici qastrollarınız olub və beynəlxalq tədbirlərdə Azərbaycanı həmişə çox yüksək səviyyədə, ləyaqətlə təmsil edirsiniz. Azərbaycan dövləti də sizi çox yüksək qiymətləndirir, sizə dövlət mükafatları verilmişdir. Bu gün isə siz yubileyiniz ərəfəsində Azərbaycan dövlətinin yüksək mükafatı - "İstiqlal" ordeni ilə təltif olunursunuz və mən istərdim ki, bu ordeni sizə təqdim edim."

x x x

Dövlətimizin başçısı İlham Əliyev "İstiqlal" ordenini Fərhad Bədəlbəyliyə təqdim edib.

x x x

Daha sonra Fərhad Bədəlbəyli çıxış edərək, göstərilən diqqət və qayğı üçün minnətdarlığını bildirib: "Çox sağ olun cənab Prezident. Əlbəttə bu, çox sevindirici bir haldır. Bu gün axşam mənim konsertimdir, gündüz isə cənab Prezident mənə belə yüksək mükafatı təqdim edir. İstiqlal, ümumiyyətlə, bütün Azərbaycanın neçə nəslinin böyük bir arzusu olub. Azad Azərbaycanın böyük Prezidenti mənə bu ordeni verir. Burada böyük bir məna var. Bakı Musiqi Akademiyasında heç vaxt unutmurlar ki, bu ali məktəbə Üzeyir bəyin adını Siz qaytarmısınız. Bütün ziyalılar bunu gözləyirdilər və Siz bunu etdiniz. Siz düz buyurdunuz ki, bizim çoxlu cavan ifaçılarımız neçə-neçə beynəlxalq müsabiqələrdə qalib olurlar, idman öz yerində, amma biz də beynəlxalq müsabiqələrdə, konsertlərdə, neçə-neçə tədbirlərdə bayrağımızı qaldırırıq. Əlbəttə, bu uğurlarda Heydər Əliyev Fondunun, Mehriban xanımın xüsusi rolu var. Bu gün konsertdə dirijorluq edəcək Fuad İbrahimov 9 il Kölndə oxuyub, Fond ona kömək edib. İndi o, gözəl dirijordur. Yəni, biz bu diqqəti həmişə hiss edirik. Vaxtilə Siz bizə pul ayırmısınız, biz gözəl royallar almışıq, indi gözəl təmirimiz var. Yəni, o diqqəti biz həmişə hiss edirik.

Bu da çox vacib məsələdir. Əlbəttə, mən Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndəsi kimi Sizə dərin təşəkkürümü bildirirəm. Çünki Siz hər yerdə harada olursunuzsa - Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Brüsseldə, Parisdə hər dəfə çıxışınızda Qarabağ məsələsini qaldırırsınız. Biz bilirik ki, gec-tez hamımız Sizinlə birlikdə Şuşaya qayıdacağıq. Biz Sizə dərin minnətdarlığımızı bildiririk. Çünki biz hiss edirik ki, bu mövzu Sizin diqqət mərkəzinizdədir. Əlbəttə, biz çalışırıq ki, Azərbaycanın adı hər yerdə ən yüksək səviyyədə səslənsin. Birinci Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında, olimpiadalarda bizim idmançılarımız qalib olanda, bayrağımız yüksələndə biz hamımız sevincdən az qalırdı ağlayaq. Bir neçə məzunumuz Böyük Teatrda solistdir - Elçin Əzizov, Dinarə Əliyeva. İndi gənclərimizin bir neçəsi La Skalada çıxış edir, yəni, işləyirik."

Prezident İlham Əliyev: "Çox sağ olun, sizə yeni uğurlar arzulayıram."

# Prezident İlham Əliyev MİDA-nın Hövsan Yaşayış Kompleksində ilk binanın təməlqoyma mərasimində iştirak edib

***Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlqoyma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***




Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru Samir Nuriyev əvvəlcə Agentliyin birinci layihəsi olan Yasamal Yaşayış Kompleksinin tikintisinin hazırkı vəziyyəti barədə məlumat verdi. Bildirildi ki, ötən il dekabrın 24-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməlqoyma mərasimi keçirilən Yasamal Yaşayış Kompleksinin tikintisi sürətlə davam etdirilir. 1843 ailəni mənzillə təmin edə biləcək bu yaşayış kompleksinin 29 çoxmənzilli binasının hər birinin müxtəlif icra mərhələlərində olan tikintisi, həmçinin ərazinin müvafiq mühəndis-kommunikasiya sistemi ilə təchiz edilməsi işləri paralel həyata keçirilir. Kompleksin ilk 12 yaşayış binasının və 960 şagird yerlik ümumtəhsil məktəbi binasının tikinti-quraşdırma işləri artıq başa çatdırılıb. Növbəti ilin yay aylarında kompleksin ilk mənzillərinin gələcək sakinlərinə təqdim olunması planlaşdırılır. Ümumilikdə isə kompleks 2019-cu ildə tam təhvil veriləcək. Dövlətimizin başçısı Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlini qoydu. Sonda xatirə şəkli çəkdirildi.

# "Bakı Ağ Şəhər"də böyük həcmdə tikinti-quraşdırma və abadlıq işləri görülüb

## Prezident İlham Əliyev "Bakı Ağ Şəhər"də görülən işlərlə tanış olub

***Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də Xaqani Rüstəmov küçəsinin, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidinin açılışında, yeni salınmış parkın, inşası və abadlığı başa çatan məhəllələrin təqdimat mərasimində iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov və "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına ərazidə görülən işlər barədə məlumat verdilər.***



Bakının iki əsas prospektini - Babək və Nobel prospektlərini və Mərkəzi Bulvar küçəsini birləşdirən, "Ağ Şəhər" bulvarına qədər davam edən və uzunluğu 1050 metr, eni 45 metr olmaqla 6 zolaqlı Xaqani Rüstəmov küçəsinin yenidənqurma işləri tamamlanıb. Bu küçədə avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulub. Xaqani Rüstəmov küçəsi ilə Süleyman Vəzirov küçəsinin kəsişməsində diametri 66 metr olan yeni dairə inşa edilib. Bu dairə tam fərqli və orijinal dizaynda inşa olunub. Burada yaşıllaşdırma işləri aparılıb və ətraf dekorativ daşlarla bəzədilib. Prezident İlham Əliyev Xaqani Rüstəmov küçəsi, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidinin rəmzi açılışını bildirən lenti kəsdi. Sonra xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ Şəhər"in tikintisi və abadlığı başa çatmış Babək Qərb kvartalında, Mərkəzi Bulvar və Süleyman Vəzirov küçələrinin kəsişməsində yeni salınmış parkla da tanış oldular.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər" ərazisində tikintisi və abadlığı başa çatmış məhəllələrlə tanış olmaq üçün avtobusla gəzintiyə çıxdılar. Avtobusla gəzinti zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya 2016-cı ildə sakinlərə təhvil verilmiş məhəllələr barədə də əlavə məlumatlar çatdırıldı.

Daha sonra Prezident İlham Əliyevə "Bakı Ağ Şəhər" layihəsi çərçivəsində 2017-ci il ərzində yerinə yetirilən və 2018-ci il üçün nəzərdə tutulmuş işlər barədə məlumat verildi. Bildirildi ki, Prezidentin müvafiq sərəncamlarına əsasən aidiyyəti qurumlar tərəfindən infrastruktur və yol işləri davam etdiriləcək. Mərkəzi Bulvar küçəsinin Nobel prospektinə qədər inşasının tamamlanması, Süleyman Vəzirov küçəsinin Babək prospektinə qədər yenidən qurulması, Babək prospektindən "Bakı Ağ Şəhər"in mərkəzinə qədər uzanan, 37 metr eni olan yolların və yeraltı kommunikasiyaların inşası nəzərdə tutulub.

Dövlətimizin başçısına burada və digər məhəllələrdə nəzərdə tutulmuş orta məktəb layihələri və onlar üçün ayrılmış ərazilər barədə də məlumat verildi. Nobel prospekti boyunca tikiləcək və layihənin işgüzar kvartalı kimi nəzərdə tutulan fərqli memarlıq üslubuna malik binalar dünya səviyyəli tanınmış UN Studio memarlıq bürosu tərəfindən işlənilib. Binaların mərkəzində yerləşəcək Zaman Meydanı, Knightsbridge kompleksi və Nizami parkı istiqamətində metro çıxışları bu mərkəzin şəhərin digər rayonları ilə nəqliyyat bağlantısını təmin edəcək. Burada inşa ediləcək metro çıxışları, eyni zamanda, Nobel prospektinin şimal və cənub hissələrini birləşdirən piyada keçidini də təmin edəcək. Prospektin üzərindən salınacaq yüksək səviyyəli piyada körpüsü isə "Bakı Ağ Şəhər"in şimalı ilə cənubunu birləşdirəcək və prospektin yeni rəmzinə çevriləcək. Uzunluğu 237 metr olan körpü cənubda Sahilyanı kvartalda yerləşəcək ticarət mərkəzinə və şimalda Fəvvarələr Meydanından keçərək Babək prospektinə qədər uzanacaq. "Bakı Ağ Şəhər"də ötən müddətdə həyata keçirilən işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Minimum aylıq əməkhaqqının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Fərhad Bədəlbəylinin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qoşqar İlahi oğlu Təhməzlinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# İlham Əliyev: "Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir"



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Maksim Oreşkin Prezident İlham Əliyevə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularının çatdırdı. Qonaq dövlətimizin başçısını ad günü münasibətlə təbrik edərək ona Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar arzuladı. Rusiyalı nazir Bakıda gedən inkişaf proseslərinin onlarda çox xoş təəssürat yaratdığını dedi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə salamlarını və ən xoş arzularını çatdırmağı xahiş edən dövlətimizin başçısı dünən Rusiya Prezidenti ilə telefon danışığını məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması ilə bağlı əlavə tədbirlərin görülməsinin vacibliyini qeyd etdi, Rusiyaya Azərbaycan ixracatının artmasından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Maksim Oreşkinin səfərinin ölkələrimizin ixrac və idxal imkanlarının genişlənməsi məsələsinin nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını dedi.

Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracının 60 faiz artığını məmnunluqla qeyd etdi. Hələ sovetlər vaxtından Rusiya istehlakçılarının Azərbaycandan keyfiyyətli kənd təsərrüfatı məhsulları aldığını deyən Maksim Oreşkin, bu artımın rusiyalılar tərəfindən yaxşı xəbər kimi qəbul edildiyini vurğuladı. O, Rusiya tərəfinin Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsal edən daha 14 müəssisəsinin Rusiya bazarlarına çıxması barədə qərar qəbul etdiyini bildirdi.

Prezident İlham Əliyev bununla bağlı minnətdarlığını ifadə etdi. Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin hər iki ölkə üçün əhəmiyyəti vurğulandı, ölkələrimizin ticarət əlaqələrində dinamik artımın olduğu qeyd edildi, qarşılıqlı investisiya, turizm, tranzit daşımaları sahəsində əməkdaşlıq imkanları müzakirə olundu.

# "Xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər"

## Prezident İlham Əliyev dünya azərbaycanlılarını təbrik edib

***Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə həmvətənlərimizi, soydaşlarımızı təbrik edib.***



AZƏRTAC xəbər verir ki, təbrikdə qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli mənəvi dəyərlərə bağlılığının və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsinin daim dövlətimizin diqqət mərkəzində olduğu bildirilir. Qeyd edilir ki, ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan verib, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirib.

Dövlətimizin başçısı bildirir ki, bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılıb, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunub. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Təbrikdə vurğulanır ki, mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

"Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir", - deyə Azərbaycan Prezidenti təbrikdə qeyd edir.

## "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" kitabı Düşənbədə tacik dilində çap edilib



***Düşənbədəki "Şarki ozod" nəşriyyatı yazıçı-publisist, Milli Məclisin deputatı Elmira Axundovanın "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" kitabını tacik dilində çap edib. AZƏRTAC xəbər verir ki, kitabı tacik dilinə Azərbaycanın Tacikistandakı səfirliyinin təşəbbüsü ilə bu ölkənin dövlət himninin müəllifi, Xalq Şairi Qolnazar Keldi tərcümə edib.***

Nəfis şəkildə tərtib olunmuş kitabda postsovet məkanının ən praqmatik siyasi xadimlərindən biri olan İlham Əliyev haqqında faktlar və materiallar əsasında açıq və inandırıcı, sadə və aydın dildə söhbət açılır, onun uğur fenomeni təhlil edilir.

Müəllif xalqımızın ümummilli lideri Heydər Əliyevi və Azərbaycan Prezidenti İlham Əliyevi yaxından tanıyan insanlardan aldığı müsahibələrdən geniş istifadə edib. Kitabda toplanan sənədlərin və faktların dili ilə Azərbaycan Prezidenti İlham Əliyev haqqında oxuculara ətraflı məlumat verilir, onun tanınmış siyasətçi obrazı yaradılır.

## IDEA Heyvanlara Qayğı Mərkəzində yoqa üzrə ustad dərsi keçirilib

***Dekabrın 23-də IDEA Heyvanlara Qayğı Mərkəzində yoqa üzrə ustad dərsi keçirilib. AZƏRTAC xəbər verir ki, ustad dərsində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva da iştirak edib.***





IDEA İctimai Təşkilatı və Klassik Yoqa Məktəbi tərəfindən təşkil olunmuş tədbirdə qonaqlar Xatxa-yoqa dərsində olub, yoqa və düzgün qidalanma haqqında xeyli maraqlı məlumatlar əldə edib, vegeterian mətbəxinin nümunələrindən dadıb, eləcə də mərkəzdə saxlanılan heyvanlarla tanış olublar. Dərs və söhbətləri beynəlxalq diploma və Yoqa Şiromani tituluna malik Elçin Quliyev keçirib. E.Quliyev 2002-ci ildən yoqa ilə məşğuldur. O, 2009-cu ildə Polşadakı Şivananda Yoqa Mərkəzində təlim keçib.

## Azər Əliyev: "Azərbaycan idman ölkəsi olduğunu bu il qazanılan uğurlarla bir daha təsdiqlədi"



***Azərbaycan idman ölkəsidir. Bunu artıq bütün dünya, idman ictimaiyyəti bilir. Azərbaycanda idmanın, Olimpiya hərəkatının inkişafı ilə bağlı məqsədyönlü siyasət aparılır. Artıq neçə illərdir ki, ölkəmizdə irimiqyaslı beynəlxalq yarışlar keçirilir. Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev AZƏRTAC-a müsahibəsində idman ilinin yekunları və idmançılarımızın uğurları barədə danışıb.***

***- 2016-cı ildə olduğu kimi, yola salmağa hazırlaşdığımız 2017-ci il də ölkəmizin idman həyatında bir çox hadisələrlə, qələbələrlə yadda qalıb. Siz, ilk növbədə, nəyi qeyd edərdiniz?***

- Əlbəttə, ən əsas idman nailiyyətimiz kimi, biz bu il Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarını qeyd etməliyik. Məlumdur ki, biz bu yarışlarda medal sayına görə güclü Türkiyə yığmasını qabaqlayaraq birinci yeri tutduq. Azərbaycan iki il bundan əvvəl birinci Avropa Oyunlarını, bu il isə İslamiadanı yüksək səviyyədə keçirməklə nümayiş etdirdi ki, istənilən beynəlxalq idman tədbirini uğurla təşkil etməyə qadirdir.

Digər nailiyyətlərlə yanaşı, "Qarabağ" futbol komandası da bizi çox sevindirdi. Azərbaycan futbolunun tarixində bizim komanda ilk dəfə UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazandı. Ağdam klubu "Çelsi", "Roma" və "Atletiko" kimi adlı-sanlı rəqiblərə qarşı layiqli oyun nümayiş etdirdi. Madrid komandası ilə iki heç-heçəni isə heç kim gözləmirdi. Onlara əhsən, yaxşı oyun göstərməyi bacardılar.

Bundan başqa, idmanın fərdi növlərində də uğurlarımız olub. Məhəmmədrəsul Məcidov boks, Hacı Əliyev güləş üzrə üçqat dünya çempionu oldular. Həmçinin xatırlatmaq istərdim ki, Bakıda ikinci dəfə Formula-1 yarışları keçirildi. Bir çoxları budəfəki yarışı mövsümün ən maraqlı və yaxşısı adlandırdılar. Beləliklə, Azərbaycan üçün idman ilinin uğurlu olduğunu deyə bilərik.

***- Sizin təşəbbüsünüz olan "İdman hamı üçün" layihəsi barədə nə deyə bilərsiniz? Həmin layihənin məqsədləri nədən ibarətdir? İndiyədək nə kimi işlər görülüb?***

- Bu layihə Beynəlxalq Olimpiya Komitəsinin "Gündəlik-2020" təşəbbüsü əsasında yaranıb. "Gündəlik"də dopinqə qarşı mübarizə, gender bərabərliyi, Olimpiya təhsili və başqa məqamlara aid 40 tövsiyə var. Bu il Azərbaycan Milli Olimpiya Komitəsi həmin gündəliklə əlaqədar komissiya yaradıb. Biz özümüz üçün hansı tövsiyələrin zəruri olmasını araşdırdıq. Qərara alındı ki, həll etməli olduğumuz birinci məsələ gender bərabərliyidir. Bildiyiniz kimi, Azərbaycanda qızların idmanla məşğul olması o qədər də geniş yayılmayıb. Müəyyən ənənələr, məhdudiyyətlər var. Qızlar arasında idmanı təbliğ etmək məqsədilə "İdman hamı üçün" adlı televiziya proqramı yaratmağı qərara aldıq. Eyni zamanda, idmanda gender bərabərliyini inkişaf etdirməklə yanaşı, biz hamı üçün sağlam həyat tərzini təbliğ etməyə çalışırıq. Proqram da belə adlanır: "İdman hamı üçün". Bu o deməkdir ki, hamı - oğlanlar da, qızlar da, cavanlar da, yaşlılar da idmanla məşğul olmalı və hamı sağlam həyat tərzi keçirməlidir. Əsas məqsəd budur. İndi bizdə ikinci mövsüm başlanıb. Velosiped idmanı, cüdo haqqında süjetlər göstərilib. Bu proqram hər həftənin bazar günü "Space" telekanalında gündüz saat 12-də göstərilir.

***- Son illər ağır atletika idmanında qazandığımız uğurlar göz qabağındadır. Ölkəmizdə idmanın bu növünün daha da inkişaf etdirilməsi üçün hansı tədbirlər görüləcək?***

- Doğrudan da, IV İslam Həmrəyliyi Oyunlarının ağır atletika yarışları bizim üçün çox uğurlu oldu. Biz 4 medal qazandıq - 1 qızıl və 3 bürünc. Təəssüf ki, dopinq ilə əlaqədar olaraq bizim federasiya və daha 8 ölkənin müvafiq qurumları diskvalifikasiya edilib. Biz beynəlxalq yarışlarda çıxış edə bilmirik. Federasiyanın məqsədi "Tokio-2020" və ya "Paris-2024" olimpiadalarında ölkəmizi ləyaqətlə təmsil edə biləcək gənc idmançılar hazırlamaqdır. Hesab edirəm ki, idmanın bu növündə bizim böyük potensialımız var. Biz bu potensialı Kosovoda, 15 yaşa qədər idmançılar arasında Avropa çempionatında nümayiş etdirdik. Orada idmançılarımız ümumi komanda hesabında birinci yeri tutdular. İstəyirik ki, bizim gənc idmançılar öz peşəkarlıqlarını daim yüksəltsinlər.

***- 2019-cu ildə Bakıda Yeniyetmələrin Yay Olimpiya Oyunları keçiriləcək. Bu Oyunlara hazırlıq necə gedir?***

- Bu il Macarıstanda belə bir yarış keçirildi. Bu, həqiqətən möhtəşəm yarış idi. Gənc idmançılar beynəlxalq səviyyəli bu cür geniş miqyaslı yarışlarda ilk dəfə iştirak etmək imkanı qazanmışdılar. Çox şadam ki, Yeniyetmələrin növbəti Yay Olimpiya Oyunları 2019-cu ildə bizim ölkədə, Bakıda keçiriləcək. Birinci Avropa Oyunları və İslamiada üçün yaradılmış infrastruktur var, müəyyən təcrübə toplamışıq. Ona görə də bu tədbirin keçirilməsində hər hansı çətinliyimiz olmayacaq. Həmin Oyunlar üçün nə lazımdırsa, demək olar ki, hazırdır.

Onu da xatırlatmaq istəyirəm ki, gələn il Azərbaycanda cüdo üzrə dünya çempionatı keçiriləcək. İdmançılarımız mütəmadi olaraq idmanın bütün döyüş növlərində - istər boks, istər güləş və ya cüdo olsun, - həmişə medallar qazanırlar. Ümidvarıq ki, bundan sonra da belə olacaq.

Gələn ilin fevralında Koreya Respublikasında Qış Olimpiya Oyunları keçiriləcək. Bizdə qış idman növləri o qədər də inkişaf etməyib. Həmin Oyunlarda ölkəmizi yalnız bir nəfər - dağ xizəkçisi təmsil edəcək. Onun yaxşı nəticələr qazanacağına ümid bəsləyirik.

Əminəm ki, növbəti idman ili də bizim üçün uğurlu olacaq. Çünki Azərbaycanda idman davamlı inkişaf edir, idmançılarımızın peşəkarlıq səviyyəsi getdikcə artır.

**- Maraqlı söhbətə görə sağ olun.**

# Bakıda “Şərqlə Qərbin qovşağında yeni enerji və kommunikasiya imkanları” mövzusunda konfrans keçirilib










***Dekabrın 23-də Bakıda Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Şərqlə Qərbin qovşağında yeni enerji və kommunikasiya imkanları” mövzusunda konfrans keçirilib.***




AZƏRTAC xəbər verir ki, konfransı açan Azərbaycanın Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov ənənəvi olaraq hər il keçirilən tədbirin əhəmiyyəti barədə danışıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən iqtisadi siyasətin əsas mahiyyəti ölkəmizin inkişafı ilə bağlı yeni imkanların araşdırılması və möhtəşəm layihələrə çevrilməsindən ibarətdir. Ulu öndər Heydər Əliyevin iqtisadi təfəkküründən miras qalmış bu yanaşmanın ən vacib ifadələrindən biri Ümummilli Lider tərəfindən hazırlanmış neft strategiyası idi. Həmin neft strategiyası, həyata keçirilən layihələr sayəsində Azərbaycan iqtisadiyyatı yeni inkişaf imkanları əldə etdi. Nəticədə xalqımızın rifah halı yaxşılaşdı, Azərbaycanın beynəlxalq nüfuzu yüksəldi.

“Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni Sazişin imzalanması ilə Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük imkanların qazanıldığını vurğulayan Əli Əhmədov bunun, eyni zamanda, ölkə həyatının bütün sferalarında daha böyük tərəqqiyə nail olmaq üçün etibarlı mənbə olduğunu diqqətə çatdırıb.

Baş nazirin müavini bildirib ki, Azərbaycan Şərq ilə Qərbin, Avropa ilə Asiyanın qovşağında yerləşir və bu coğrafi üstünlükdən dövlətimizin başçısı öz siyasətində böyük məharətlə istifadə edir. Bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanın tarixi İpək Yolunun bərpası kimi qlobal bir layihənin həyata keçirilməsindəki rolunu birmənalı şəkildə təsdiq edir.

Son illər Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bu qlobal enerji, nəqliyyat layihələrinin ölkəmizə yeni dividendlər gətirdiyini bildirən Baş nazirin müavini bu layihələrin xalqımızın rifah halının yaxşılaşmasına xidmət etdiyini diqqətə çatdırıb.

Konfransın əlamətdar gün ərəfəsində təşkil olduğunu bildirən Əli Əhmədov dövlətimizin başçısı İlham Əliyevi doğum günü münasibətilə təbrik edib.

Tədbirdə çıxış edən “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri, Milli Məclisin deputatı Cavid Qurbanov bildirib ki, düşünülmüş strategiyasız iqtisadi sahədə uğur qazanmaq, eləcə də güclü iqtisadi dayaqlar olmadan siyasi sahədə ciddi nailiyyətlər əldə etmək mümkün deyil.

Azərbaycanda nəqliyyat sektorunun inkişafı istiqamətində böyük işlərin görüldüyünü qeyd edən Cavid Qurbanov bildirib ki, ölkəmizdə müasir logistik şəbəkə qurulub, respublikamızın geniş tranzit imkanlarından səmərəli istifadə olunması istiqamətində işlər davam etdirilir. Milli nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını təmin etmək üçün dəmir yolu, dəniz, avtomobil, hava yolları, boru kəməri sahələri geniş təhlil edilir, daha səmərəli istifadə yolları müəyyən olunur. Bu baxımdan “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” olduqca mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı əsasında, yerli və xarici mütəxəssislərin birgə əməkdaşlığı sayəsində hazırlanmış bu sənəd istər ölkəmizin potensial imkanlarının aydınlaşdırılması, istərsə də müvafiq




qabaqcıl təcrübənin öyrənilməsi və bu təcrübənin tətbiqi yollarının müəyyən edilməsi baxımından xüsusilə diqqəti cəlb edir. Bu məqsədlə yerli və beynəlxalq daşımaların idarə olunması mexanizmi təkmilləşdirilir, ölkənin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası genişləndirilir.

“Hazırda özünün inkişaf dövrünü yaşayan və logistikanın inkişafında önəmli yeri olan sahələrdən biri də dəmir yoludur. Son iki ildə bu sahənin inkişafı üçün dövlətimizin başçısının rəhbərliyi altında bir çox işlər görülüb. İlk növbədə, dəmir yolunun müasir standartlara uyğunlaşdırılması üçün yüzlərlə kilometr mövcud dəmir yolları əsaslı təmir edilib, yeni xətlər salınıb, vaqon parkı yenilənib, stansiyalar əsaslı təmir edilib, dəmir yolunun bir sıra sahələrində ən müasir texnologiyalar tətbiq edilməyə başlanılıb. Təkcə Şərq-Qərb istiqamətində 383,1 kilometr dəmir yolunun əsaslı təmir olunduğunu vurğulayan “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri bildirib ki, yolun kontakt şəbəkəsi üzrə əsaslı təmir və yenilənmə işləri aparılıb, yeni yol dəyişən qurğular alınıb.

Cavid Qurbanov deyib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanı Avrasiya məkanında mühüm nəqliyyat və logistika mərkəzinə çevirəcək, qədim İpək Yolu üzərində olan ölkəmizin tarixi ticarət qovşağı mövqeyini özünə qaytaracaq. Azərbaycan, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində önəmli addımlar atır. Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycan və İran dəmir yollarının birləşdirilməsi istiqamətində artıq önəmli işlər həyata keçirilib. Azərbaycan ərazisində bütün işlər tamamlanıb, bütün infrastruktur hazırdır. Hazırda Astara (Azərbaycan)-Astara (İran) dəmir yolunun inşasına dair İran ərazisində işlər yekunlaşmaq ərəfəsindədir. Hazırkı mərhələdə yüklər Astara stansiyasından Rəşt stansiyasına qədər avtomobillər vasitəsilə nəql edilir. Növbəti mərhələdə Astara-Rəşt dəmir yolunun tikintisi reallaşdırılacaq ki, bu işlər də Azərbaycan hökumətinin ayırdığı kredit hesabına həyata keçiriləcək. Bütün işlər yekunlaşandan sonra Skandinaviya ölkələri, Rusiya, Azərbaycan və İranın dəmir yolları bir şəbəkədə birləşəcək.

***Ardı Səh. 6***

# Bakıda "Şərqlə Qərbin qovşağında yeni enerji və kommunikasiya imkanları" mövzusunda konfrans keçirilib

Əvvəli Səh. 5

Diqqətə çatdırılıb ki, dəmir yolunda vaqon parkının yenilənməsi məqsədilə bir sıra işlər görülüb. 3101 yeni yük vaqonu alınaraq vaqon parkına daxil edilib. Lokomotiv parkının sağlamlaşdırılması məqsədilə 10 yeni teplovoz və 4 yeni elektrovoz əsaslı təmir edilib, 3 elektrovoz və 5 teplovoz alınıb, 5 lokomotiv əsaslı təmir olunaraq istismara buraxılıb. Fransanın "ALSTOM" şirkətinin istehsalı olan 50 müasir elektrovozun alınmasına dair müqavilə imzalanıb ki, həmin elektrovozların Bakı-Böyük Kəsik marşrutunda istifadəyə verilməsi planlaşdırılır.

Qeyd edilib ki, sərnişinlərin daşınmasında keyfiyyəti yüksəltmək üçün xeyli iş görülüb. Belə ki, İsveçrənin "Stadler Rail Group" şirkətinin istehsalı olan 4 vaqondan ibarət 5 ikimərtəbəli sürət qatarı alınaraq ölkəyə gətirilib və həmin şirkətlə Bakı-Tbilisi-Qars marşrutu ilə hərəkət edəcək daha 20 vaqonun alınmasına dair müqavilə imzalanıb. Yaxın zamanlarda həmin vaqonlar Azərbaycana gətiriləcək.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri bütün dəmiryolçular adından dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib.

SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə ölkəmizdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi neft-qaz strategiyasından danışıb.

Başa çatmaqda olan ilin neft sənayesi ilə bağlı bir sıra əlamətdar hadisələrlə yadda qalacağını qeyd edən Xoşbəxt Yusifzadə "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Sazişin imzalanmasını böyük tarixi hadisə adlandıraraq deyib: "Bu, doğrudan da çox böyük əhəmiyyət kəs edir. Bildiyimiz kimi, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ölkəmizdə iqtisadi vəziyyət o qədər də ürəkaçan deyildi. Bütün sahələrdə olduğu kimi, neft sənayesində də vəziyyət ağır idi, xalqımızın rifah halı gündən-günə pisləşirdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin uzaqgörənliklə hazırladığı neft strategiyasının həyata keçirilməsi ölkəni bu ağır vəziyyətdən çıxardı. Kəşf olunmuş neft yataqlarının xarici şirkətləri cəlb etməklə işlənməsi qərara alındı. Çünki o vaxt bizim "Azəri", "Çıraq" və "Günəşli" yataqlarını işlətmək üçün iqtisadi, texniki imkanlarımız yox idi. Məhz buna görə "Əsrin müqaviləsi"nin imzalanması neft sənayesinin inkişafı ilə yanaşı, ümumilikdə ölkə iqtisadiyyatının tərəqqisi, xalqımızın rifahının yaxşılaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Bu müqavilənin imzalanması, həmçinin ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə təkan verdi".

Xoşbəxt Yusifzadə bildirib ki, bu günədək "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından 450 milyon ton neft alınıbsa onun 250 milyon tonu Azərbaycanın mənfəət neftidir və bu da dünya bazarlarına çıxarılıb. Bu mənfəət neftindən gələn gəlirləri də hər birimiz görürük. Bu gəlirlər ölkəmizin inkişafına, xalqımızın rifahının yaxşılaşdırılmasına sərf edilib.

Ulu öndər Heydər Əliyev tərəfindən başladılan və Prezident İlham Əliyevin reallaşdırdığı Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin çəkilməsinin Azərbaycan neftinin xarici bazarlara çıxarılması istiqamətində atılan mühüm addımlardan olduğunu qeyd edən SOCAR-ın birinci vitse-prezidenti bildirib ki, dünya bazarlarına çıxarılan 460 milyon ton neftin 350 milyon tonu məhz Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə çıxarılıb.

Azərbaycanda iki milyard ton neft hasil olunmasının təntənəli şəkildə qeyd edildiyini xatırladan Xoşbəxt Yusifzadə bildirib ki, 1971-ci ildə bir milyardıncı ton neftin hasil edilməsi ilə bağlı mərasim keçirilmişdi. O vaxt ulu öndər Heydər Əliyev Moskvada XXIV partiya qurultayında çıxışında dedi ki, balaca bir respublikanın - Azərbaycanın neftçiləri bir milyard ton neft hasil ediblər. Sonra Bakıda mərasim keçirildi. İki milyardıncı ton neftin hasil edilməsi də məhz bu ilə təsadüf etdi. 46 il ərzində hasil edilən bir milyard ton neftin 700 milyonu müstəqillik illərində hasil edilib".

TAP və TANAP layihəsi üzrə işlərin uğurla davam etdirildiyini deyən Xoşbəxt Yusifzadə bu layihələrin istifadəyə verilməsi ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun daha da artacağını vurğulayıb. Konfrans bədii hissə ilə davam edib.

# Milli Məclisdə "Dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında parlamentin rolu" mövzusunda konfrans keçirilib



Dekabrın 25-də Milli Məclisdə BMT ilə birgə "Dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında parlamentlərin rolu" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda Baş nazirin müavini, Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT tərəfindən "2030 - Dayanıqlı İnkişaf Məqsədləri" adlı layihənin 2015-ci ildə hazırlandığını bildirib. Qeyd edib ki, bu layihəyə qoşulan Azərbaycan qlobal layihənin qoyduğu ayrı-ayrı məqsəd və hədəflərə uyğun ciddi addımlar atır. Baş nazirin müavini vurğulayıb ki, qarşıdakı 15 il ərzində qlobal layihə çərçivəsində istər inkişaf etməkdə olan, istərsə də inkişaf etmiş dövlətlər üçün çox ciddi pozitiv dəyişikliklər nəzərdə tutulur. Qlobal layihə iqtisadi cəhətdən geridə qalmış ölkələrin inkişaf etdirilməsi, bütün dövlətlərdə əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması, bir sözlə, ümumi mənzərənin dəyişdirilməsi məqsədilə həyata keçirilir. Dayanıqlı İnkişaf Məqsədlərində bəşəriyyət üçün ekoloji tarazlığın təmin edilməsi, dünya xalqlarının daha yaxşı yaşaması üçün əlverişli mühitin yaradılması, gender bərabərliyinin, insan hüquqlarının daha yüksək səviyyədə təmin edilməsi nəzərdə tutulub. Layihədə 17 əsas məqsəd və bunlara uyğun olaraq 169 hədəf müəyyənləşdirilib. Bununla həm milli inkişafa, həm də dünya transformasiyası məqsədlərinə nail olunacaq. Azərbaycan öz üzərinə çox ciddi vəzifələr götürüb və bu istiqamətdə ciddi addımlar atılır. Azərbaycan yeganə ölkədir ki, qlobal layihə çərçivəsində "Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası" yaradıb. Şuraya yüksək statuslu dövlət məmurları cəlb edilib. Azərbaycanın bu təcrübəsi diqqətlə qarşılanır və ölkəmiz Dayanıqlı İnkişaf Məqsədlərində nəzərdə tutulmuş öhdəlikləri ləyaqətlə yerinə yetirir.

Konfransda Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, belə bir konfransın Milli Məclisdə keçirilməsi təqdirəlayiqdir. Qeyd edilib ki, müzakirəyə çıxarılan "Dayanıqlı İnkişaf üzrə gündəlik" layihəsində 2015-ci ildən 2030-cu ilə qədər qarşıya qoyulan hədəflərin, vəzifələrin həyata keçirilməsi istiqamətində mühüm məsələlər öz əksini tapır. Burada hansı addımların atılacağı, problemlərin həlli istiqamətində hansı işlərin görüləcəyi barədə müəyyən proqramlar mövcuddur. Dünya dövlətləri bir yerdə bu məsələlərin öhdəsindən gəlməlidirlər. Yoxsulluq, aclıq, miqrant problemləri və digər sosial-iqtisadi qayğılar bütün dünyanı narahat edən məsələlərdir. Bu gün dünya çox narahat bir vəziyyətdədir, Yaxın Şərq ölkələrində müharibələr gedir, miqrant və qaçqın problemi mövcuddur. Neçə illərdir ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal edilib, ölkəmizdə bir milyondan çox qaçqın və məcburi köçkün var. Böyük dövlətlər bu problemlərin həlli ilə bağlı ortaq məxrəcə gələ bilmirlər. Dünyanın, xüsusilə iri dövlətləri həm sözdə, həm də əməli fəaliyyətdə birlik nümayiş etdirsələr, onda bu problemlər tezliklə həll olunar, dayanıqlı inkişaf hədəflərinə nail olunması prosesi asanlaşar. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə bununla bağlı "Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası" yaradılması Azərbaycanın həmin məsələyə nə qədər önəm verdiyinin bariz nümunəsidir.

Sonra BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai bildirib ki, BMT Azərbaycan ilə əməkdaşlıqdan çox məmnundur. Qeyd edib ki, ölkəmizlə qurum arasında əlaqələr müxtəlif sahələri, o cümlədən parlamentlərarası və hökumətlərarası münasibətləri əhatə edir. Qulam İshaqzai vurğulayıb ki, Azərbaycanda dayanıqlı inkişafla bağlı xeyli işlər görülür. Prezident İlham Əliyevin "Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Fərmanı da çox təqdirəlayiqdir.

Konfransda Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə görülmüş işlər və qarşıda duran perspektivlər", Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Dayanıqlı İnkişaf Məqsədləri üzrə sosial aspektlərin həyata keçirilməsində parlamentin rolu", Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Dayanıqlı İnkişaf Məqsədlərində iqtisadi hədəflərə nail olunmasında parlamentin rolu", Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Dayanıqlı İnkişafda sağlam yaşayışın təmin olunması hədəflərinə nail olunmasında parlamentin rolu" mövzularında çıxışlar ediblər.

Sonra müzakirə olunan məsələlərlə bağlı suallar cavablandırılıb.

# KİVDF jurnalistləri mükafatlandırıb






***Dekabrın 25-də Beynəlxalq Mətbuat Mərkəzində Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin adları açıqlanıb.***

Fondun icraçı direktoru Vüqar Səfərli mərasimdə çıxış edərək bildirib ki, fond il ərzində ümumilikdə 9 müsabiqə keçirib. Bu müsabiqələrin 3-ü fond tərəfindən, digərləri isə müxtəlif rayonların icra hakimiyyətləri, eləcə də təşkilatlarla birgə keçirilib.

Vüqar Səfərli onu da qeyd edib ki, budəfəki müsabiqəyə 66 kütləvi informasiya vasitəsindən 153 yazı təqdim olunub. Hər bir yazı 3 ekspert tərəfindən qiymətləndirilib. Hər bir istiqamət üzrə 6 qalib müəyyənləşib. Tədbirdə Fondun Müşahidə Şurasının üzvləri, BDU-nun professoru Cahangir Məmmədli, Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu çıxış edərək müsabiqəyə təqdim olunan yazılarla bağlı fikirlərini bildiriblər. Diqqətə çatdırılıb ki, müsabiqəyə təqdim olunan yazılarda ildən-ilə keyfiyyət daha da artır. Yazıların tam əksəriyyəti peşəkarlar tərəfindən qələmə alınıb. Yazılardakı qüsurlara da bağlı iradlar səslənib. Diqqətə çatdırılıb ki, jurnalistin öz dili və üslubu olmalıdır, fərqli üslublara isə çox az hallarda rast gəlinir. Yazılarda plagiatlığa yol verilməməsi də xüsusi vurğulanıb.

Müzakirələrdən sonra müsabiqə qaliblərinin adları açıqlanıb. Xatırladaq ki, qaliblər arasında "Səs" Media Qrupunun 5 əməkdaşı da var.

# Baş nazirin müavini: "Ağdərənin yeni azad olunmuş ərazisində salınmış şəhərcik ikinci qayıdışdır"

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov APA-ya müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir:*

***-Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərinin həlli sahəsində görülən işlər barədə danışmağınızı istərdik...***

-Hələ ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ilk növbədə, qaçqın və məcburi köçkün problemi ilə məşğul olmağa başladı. Çox təəssüflər olsun ki, əvvəlki hakimiyyətin dövründə çoxlu problem yaranmışdı, qaçqın və məcburi köçkünlər xaotik şəkildə, kim harada gəldi, yerləşmişdi. Prosesi idarə edən, onları istiqamətləndirən olmamışdı. Çünki sistem pozulmuşdu, idarəçilik yox idi. İnsanların durumu pis, dolanışıq çətin idi. Onsuz da SSRİ parçalanandan sonra iqtisadiyyatımız sıfır vəziyyətinə düşmüşdü, hökumətdə o insanları təmin etmək üçün heç bir vəsait yox idi. Heydər Əliyev, ilk növbədə, beynəlxalq humanitar təşkilatların Azərbaycana gəlməsini təmin etdi. Heydər Əliyev humanitar təşkilatların Azərbaycana gəlməsini təmin etməsəydi, ölkədə humanitar böhran, fəlakət baş verəcəkdi və bunun qarşısı da alınmaz olacaqdı. Ulu Öndərin uzaqgörənliyinin bəhrəsini o zaman gördük. Beynəlxalq təşkilatlar Azərbaycana dəvət edildi, ölkəyə 80-ə qədər humanitar təşkilat gəldi. Bir il ərzində beynəlxalq humanitar təşkilatlar 70-80 milyon dollarlıq proqram həyata keçirməyə və bizim 1 milyon qaçqın və məcburi köçkünümüzə yardım etməyə başladı. İlk növbədə, BMT, ABŞ, Avropa, Türkiyə və İranın humanitar təşkilatları Azərbaycana gəldi. Biz bunu yaddan çıxarmamalıyıq. O zaman bizim vəsaitimiz yox idi. Təsəvvür edin ki, o dövrdə beynəlxalq humanitar təşkilatlar bir il ərzində qaçqın və məcburi köçkünlərə 80 milyon dollar sərf edirdi, Azərbaycan hökuməti isə çətinliklə 500 min dollar ayıra bilirdi. Çünki Azərbaycan hökumətinin vəsaiti yox idi. Ulu Öndərin ən böyük töhfəsi humanitar böhranın, fəlakətin qarşısının alınması oldu. Bununla Heydər Əliyev həm də dövlətin dağılmasının qarşısını aldı. Zarafat deyil, 1 milyon insan ortada qidasız, vəsaitsiz qalmışdı. Heydər Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin sistemli həlli üçün mexanizm qurmağa başladı. Bu gün Prezident İlham Əliyev o mexanizmi təkmilləşdirərək dünyaya göstərdi ki, bu sahədə Azərbaycan modeli var. Bu gün dünya miqyasında qaçqın və məcburi köçkünlərin idarə olunma sistemi, mexanizmi Azərbaycan brendidir. Hökumətin son hesabatı zamanı Azərbaycan Prezidenti çıxışında bunu qeyd etdi. Bu, həqiqətdir. Baxın, 1 milyon qaçqın və məcburi köçkün gələn zaman Azərbaycanın 7 milyon əhalisi vardı, hər 7 nəfərdən biri qaçqın idi. İndi təbii artım hesabına qaçqın və məcburi köçkünlərin sayı 1 milyon 200 min nəfərə çatıb, ölkənin əhalisi isə 10 milyon nəfərdir. 25 illik qaçqın və məcburi köçkünlük tarixi var, mən 20 ildir ki, bu sahədə çalışıram, Prezidentin bu sahədə tapşırıqlarını yerinə yetirirəm. Bu 25 ildə bir dəfə də olsun Azərbaycanda qaçqınların kütləvi problemi ortaya çıxmayıb, kütləvi narazılıq olmayıb. Demirəm ki, heç bir problem olmayıb, olub, amma o problem ulu öndər Heydər Əliyevin qurduğu mexanizm və Prezident İlham Əliyevin bu mexanizmi Azərbaycan brendinə çevirməsinin hesabına yoluna qoyulub. Problemlər həm danışıqla, həm də görülən işlər hesabına yoluna qoyulub.

***-Ötən dövr ərzində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə hansı həcmdə vəsait sərf edilib?***

-Ötən dövrdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 6,6 milyard manat sərf edilib. Bu vəsaitin 3,1 milyard manatı dövlət büdcəsindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, 2,1 milyard manat Dövlət Neft Fondundan məcburi köçkün qəsəbələrinin tikintisinə ayrılıb, 1,4 milyard manat isə beynəlxalq humanitar təşkilatların qoyduğu vəsaitdir. Bu günə qədər 97 müasir qəsəbə tikilib. Bu yaxınlarda da Tərtərdə böyük şəhərcik açıldı. Bu 97 qəsəbəyə 53 min ailə, 265 min nəfər köçürülüb. Həmin qəsəbələrə ilkin dövrdə köçürülənlərin 10 min nəfəri qaçqın olub, qalanların hamısı məcburi köçkündür. O şəhərciklərdə 53 min mənzil, 157 məktəb, 60 mədəniyyət obyekti, 59 tibb müəssisəsi, 61 uşaq bağçası, 2 Olimpiya Kompleksi tikilib. Görülən bu işlərin və ayrılan vəsaitin 95 faizi son 14 ilin payına düşür. Bu işlər Prezident İlham Əliyevin 14 illik fəaliyyəti dövründə həyata keçirilib. Beləliklə, qaçqın və



məcburi köçkünlərin idarə edilməsi ilə bağlı Azərbaycan brendi yaradılıb. Görürsünüz ki, Avropada nə baş verir. 500 milyonluq Avropa 1 milyon miqrantın əlində əsir-yesir qalıb. Qoca, qadın, uşaq demirlər, səhərdən axşama qədər o tərəf, bu tərəfə qovurlar. Bəs ərazi və əhali baxımından kiçik olan Azərbaycan dövləti təkbaşına bu problemin öhdəsindən necə gəlib? Ulu Öndərin qurduğu mexanizm və Prezident İlham Əliyevin o mexanizmi təkmilləşdirərək Azərbaycan brendinə çevirməsinin hesabına bu problemin öhdəsindən gəlinib. Ona görə də təsadüfi deyil ki, BMT Qaçqınlar üzrə Ali Komissarlığı Azərbaycanı qurumun İcraiyyə Komitəsinin üzvü seçdi. BMT Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin illik iclaslarında səsvermə hüququ ilə iştirak edirik. BMT-nin hazırkı baş katibi Antonio Quterreş Qaçqınlar üzrə Ali Komissarlıqda ali komissar kimi 10 il işlədi. O, Qaçqınlar üzrə Ali Komissarlığın 150-160 ölkənin nümayəndəsinin iştirak etdiyi hər illik sessiyasında çıxışında deyirdi ki, Azərbaycan dövlətinin, Prezidentinin öz qaçqın və köçkünləri üçün gördüyü işlər dünya üçün bir nümunədir. Yəni bunu biz demirik.

Bu gün Azərbaycana gələnlər heyran qalırlar, bunu da biz demirik. Bütün görülən bu işlər elə-belə başa gəlməyib. Çox böyük zəhmət, əziyyət, bilik və bacarıq, çox geniş miqyaslı akademik proqnozlaşdırma hesabına bu işlər həyata keçirilib. Təbii ki, bu işə Birinci vitse-prezident Mehriban Əliyeva da qoşuldu. Mehriban Əliyeva birinci xanım olaraq dünyanın birinci xanımları arasında ən yüksək səviyyəyə qalxdı. Mehriban Əliyeva xanım kimi Azərbaycan xanımlarını dünyaya tanıtdı. Əgər Azərbaycan Prezidenti Azərbaycan dövlətini, xalqını tanıdıb, dünyaya inteqrasiyasını təmin etdisə, Mehriban Əliyeva Azərbaycan xanımlarını dünyaya tanıtdı. Düzdür, əvvəllər də Azərbaycanı dünyaya tanıdanlar olub, amma bu miqyasda olmayıb. Əvvəla, Mehriban Əliyeva böyük ziyalı ailəsində dünyaya göz açıb, böyüyüb, ziyalılığı oradan götürüb, ancaq çox böyük siyasi məharəti, bacarığı həm də Heydər Əliyevin ailəsindən alıb. Mehriban Əliyeva bu gün tək qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə deyil, mədəniyyət, təhsil, tibb, idman, incəsənət sahələri ilə də məşğuldur. Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması Azərbaycan xalqı və bütün dünya tərəfindən çox yüksək dəyərləndirildi, yüksək səviyyədə qəbul olundu, bu təyinatın çox yerində və düzgün olduğu vurğulandı. Mehriban Əliyeva birinci müşavirəsini qəzalı binalarda yaşayan məcburi köçkünlərin köçürülməsinə həsr edildi. Həmin müşavirədə tapşırıq verildi ki, 1 il ərzində 4 min məcburi köçkün ailəsi qəzalı binalardan köçürülməlidir. Bu prosesdən 5-6 ay keçib, artıq 900 ailəni qəzalı binalardan köçürmüşük. İnşallah, gələn ilin avqustuna qədər Mehriban Əliyevanın tapşırığı birmənalı təmin olunacaq, 4 min ailənin köçürülməsi başa çatacaq. Təbii ki, bu işlər Prezidentin rəhbərliyi altında həyata keçirilir. Çünki Prezident də bu istiqamətdə öz tapşırıqlarını verir.

Prezident İlham Əliyev 97 qəsəbənin 33-nün açılışında şəxsən iştirak edib. Bu yaxınlarda Tərtərdə 1170 ailəlik böyük bir şəhərcik istifadəyə verildi. Burada da maraqlı bir məqam var.

***-Söhbət hansı məqamdan gedir?***

-Son 200 ildə Azərbaycan torpaqları ermənilər tərəfindən tədricən işğala məruz qalıb. Göyçə, Zəngəzur, 1988-1993-cü illərdə Qarabağ da daxil olmaqla, torpaqlarımızın 20 faizi işğal olunub. 200 il ərzində ermənilər tərəfindən işğal olunmuş torpaqların 1 kvadratmetri belə geri qaytarılmamışdı. Maraqlı bir məqamı ilk dəfə sizə açıqlayıram. 200 ildə zəbt olunan torpaqların bir qismi ilk dəfə 1993-cü ilin dekabrında Horadiz əməliyyatında ulu öndər Heydər Əliyev tərəfindən geri qaytarıldı. Fizuli rayonunun işğal altındakı bir çox kəndləri, minlərlə hektar torpaq, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. İlk dəfə Azərbaycanın işğal altındakı torpaqlarının geri qaytarılması prosesi başladı. Bu prosesi Heydər Əliyev başlatdı, 2016-cı ilin aprel döyüşlərində Prezident İlham Əliyev bunu davam etdirdi, Lələtəpə, Talış yüksəkliyi azad edildi. Talış yüksəkliyi hesabına 10 min hektarlarla torpaq azad olundu. Lələtəpə yüksəkliyinin azad edilməsi ilə Cocuq Mərcanlı kəndinin bərpasına şərait yarandı. Kəndin bərpası üçün təcili sərəncamlar verildi, 50 ev və məktəb tikintisi, o cümlədən Şuşa məscidinin bənzərinin inşasına başlandı. İki ay müddətində Prezidentin tapşırığı ilə kənd bərpa edildi. Digər tərəfdən, bundan əvvəl dövlət başçısının tapşırığı ilə Azərbaycandakı bütün xarici ölkə səfirlərinin və akkreditasiya olunmuş KİV nümayəndələrinin kəndə səfəri təşkil edildi. Bir gündə bütün dünyaya göstərildi ki, ermənilər 4 ay işğal altında saxladıqları Cocuq Mərcanlı kəndini hansı vəziyyətə qoyublar.

Tərtərdə 1170 ailəlik şəhərcik salınması məsələsinə toxunmaq istəyirəm. Əslində, yeni şəhərcik Ağdərənin işğaldan azad olunmuş torpağında salınıb. Vaxtilə ermənilər Ağdərənin bir neçə kəndinin adını dəyişmişdilər, o kəndlərin tarixi adları bərpa edildi. Prezidentin tapşırığı ilə Ağdərənin həmin ərazisində bu şəhərcik tikildi. Bu, ikinci bərpa obyektidir, ikinci qayıdışdır, bunu ilk dəfə açıqlayıram. Biz deyirdik ki, Böyük Qayıdışın başlanğıcı Cocuq Mərcanlıdır. Bu qayıdış davam edir. Ağdərənin azad edilmiş torpaqlarında yeni şəhərcik tikildi. Ermənilər hər gün o şəhərciyə baxır və gözləri dağlanır.

Ermənilər həmişə deyirlər ki, 5-6 əsrdir ki, Dağlıq Qarabağda yaşayırlar, bunu bütün dünyaya yayırlar. Biz də ermənilərin yalan danışdıqlarını bildiririk. Keçən il Prezidentin tapşırığı ilə məşhur abidənin yeri tapıldı. Adını Marquşəvan qoyduqları Şıxarx kəndində abidənin yeri aşkarlandı. Hansı ki, Türkmənçay müqaviləsi əsasında İranın Marağa kəndindən ermənilər 1828-ci ildə həmin kəndə köçürülüblər. 1978-ci ildə həmin ermənilər Marağadan köçürülmələrinin 150 illiyini qeyd ediblər, Şıxarxda "Marağa-150" abidəsini ucaldıblar. 1988-ci ildə ermənilər o abidəni dağıdıblar. Ancaq dağıdılan abidənin bir hissəsi orada qalmışdı. Keçən il təsadüfən bu, aşkarlandı və Prezidentə məruzə olundu. Prezident tapşırıq verdi ki, bu istiqamətdə ciddi iş görülsün, ora abadlaşdırılsın və ölkəyə gələn bütün xarici təşkilatlara göstərilsin. Prezidentin tapşırığı ilə mən Sankt-Peterburqa bir qrup göndərdim, keçmiş SSRİ-nin arxivi oradadır. Arxivdə fars dilində 200 səhifədən yuxarı Türkmənçay müqaviləsi tapıldı. Həmin müqaviləni Azərbaycan, rus və ingilis dilinə tərcümə etdik. Eyni zamanda, çarın ermənilərin Marağadan Şıxarxa köçürülməsi ilə bağlı sərəncamlarını tapdıq. Çar bununla bağlı 5-6 sərəncam verib. Çarın Qriboyedova tapşırıqlarını, Qriboyedovun çara məruzələrini tapdıq. Çarın tapşırığı ilə o vaxt Maşko adlı rus rəssamı göndərilib, Marağadan Şıxarxa qədər köç prosesini təsvir edən portretləri çəkib. Həmin portretlərin surətini çıxardıq. Prezident bütün bunların hamısını Şıxarxda qurmağı tapşırdı. O abidənin ətrafını abadlaşdırdıq, stendlər qurduq və xarici ölkələrin səfirləri, Azərbaycanda akkreditasiya olunmuş xarici KİV, yerli medianın oraya səfəri təşkil olundu. Bütün diplomatlar bir daha canlı olaraq erməni yalanının şahidi oldular. Dedik ki, buyurun, ermənilər deyirlər ki, 5-6 əsrdir, bu torpaqlarda yaşayırlar, ancaq bu abidəni ermənilər Qarabağa köçürülmələri ilə bağlı özləri ucaldıblar. Hətta Sankt-Peterburqda arxivdə çox məşhur bir erməni tarixçinin də yazısını tapdıq. Həmin erməni tarixçi 1930-cu ildə yazır ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, ermənilərin Dağlıq Qarabağ ərazisinə heç bir aidiyyəti yoxdur. Həmin yazının da arxiv materialı kimi surətini çıxarmışdıq. Səfirlərə bu da nümayiş etdirildi. Ermənilər təlaş içərisindədirlər. 25 ildir, yalan danışırlar, bu abidə ilə bir daha sübut olundu ki, onlar genetik xəstədirlər. Yalan danışmaq, başqasının torpağına göz dikmək ermənilərin genetik xəstəliyidir. Ulu Öndərin dövründən başlayaraq, daha sonra isə Prezident İlham Əliyev tərəfindən işğal altındakı torpaqlar azad edilməkdədir. Heç bir şübhə yoxdur ki, Şuşaya, Xankəndinə getməyə az qalıb. Ermənistan dağılır, bu ölkədə insan qalmayıb, qalanlar da silah zoru ilə saxlanılır. Suriyadan erməniləri gətirib Dağlıq Qarabağa yerləşdirirlər, onlar da orada qalmayacaq, qaçıb gedəcəklər. Sarkisyan rejiminin öz xalqına verdiyi bunlardır. Biz tam əminik ki, çox qısa zamanda o torpaqlar tədricən azad olunacaq, öncəki vəziyyətlərindən 10 dəfə, 20 dəfə gözəl rayon mərkəzləri, şəhərlər, şəhərciklər salınacaq. Azad edilmiş iki yerdə Prezidentin Sərəncamı ilə 100 ev də tikilib, artıq yaxın günlərdə həmin evlərə köçürülmə başlanacaq. Artıq Cocuq Mərcanlıda 150 ev var. Çox maraqlıdır ki, yerli əhali ilə bərabər, başqa rayonların sakinləri də Cocuq Mərcanlıya köçmək üçün Prezidentə müraciət edirlər. Azərbaycan vətəndaşının öz torpağına, doğulduğu yerə, Vətəninə münasibəti budur. Ancaq beynəlxalq təşkilatlar bizə deyirdi ki, məcburi köçkünlər geri qayıdacaqlarmı?! Buyursunlar, görsünlər. Bu, Azərbaycan vətəndaşının torpağına, dövlətinə münasibəti, o da ermənilər. İnşallah, o torpaqlar azad olunacaq, o insanlar da ləyaqətlə o torpaqlara qayıdacaqlar. Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin son 25 ildə gördükləri işlərin çox az, 1 faizini danışdım. Onların gördükləri işlər barədə günlərdə danışmaq mümkündür.

***-Qarşıdan Yeni il gəlir. Arzularınızı bilmək istərdik...***

-Ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın gündəlik fəaliyyəti nəticəsində 2017-ci il də çox uğurla başa vurulur. Baxmayaraq dünyada kritik bir maliyyə böhranı var, bizdə bu problem arxada qalıb. Əvvəlki illər kimi hətta bu il həm iqtisadi inkişafımız, həm də kənd təsərrüfatı sahəsi, siyasi məsələlərin həlli, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istiqamətində görülən işlər kifayət qədərdir.

Fürsətdən istifadə edib qarşıdan gələn bayramlar - həm Yeni il, həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə ölkə Prezidenti cənab İlham Əliyevi, ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanı bütün bu gördükləri işlərə, xalq, millət və dövlət üçün çəkdikləri əziyyətə, Azərbaycan xalqının rifahı üçün çalışdıqlarına, qısa müddət ərzində bütün dünyaya tanıtdıqlarına görə, Azərbaycanın dünyaya inteqrasiyasını tam təmin etdiklərinə görə səmimi qəlbdən bir milyondan çox qaçqın və məcburi köçkün adından təbrik edirəm, onlara möhkəm cansağlığı arzu edirəm, gələcək işlərində böyük uğurlar diləyirəm. Eyni zamanda, məcburi köçkün və qaçqınlarımızı da bu bayramlar münasibətilə təbrik edirəm, onlara cansağlığı arzulayıram. Onlar əmin olsunlar ki, ölkəni qısa müddətdə bu vəziyyətə çatdıra bilən ölkə Prezidenti və Birinci vitse-prezident digər işğal altında olan torpaqlarımızı azad edəcəklər, o yerlərdə bu qəsəbələrdən də gözəl tikilmiş bir gözəllik yaradacaqlar və siz hörmətli qaçqın və məcburi köçkünlər ləyaqətlə öz doğma yurdlarınıza qayıdacaqsınız.

# Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunması təkcə İslam aləmi üçün deyil, bütövlükdə bəşəriyyət üçün böyük önəm daşıyır

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi

***- Mübariz müəllim, müasir şəraitdə İslam həmrəyliyini zəruri edən amillər hansılardır?***

- Bildiyiniz kimi, bu gün dünyada baş verən məzhəb savaşları, vətəndaş müharibələri nəticəsində sosial-siyasi gərginlik ən yüksək həddə çatmışdır. Avropa məkanında baş verən dözümsüzlük, ksenofobiya, islamafobiya kimi meyillər radikalizm, ekstremizm kimi qorxulu təzahürlərin meydana gəlməsinə şərait yaratmışdır. Çox təəssüf ki, bu təzahürlərin faciəli nəticələrindən ən çox İslam dünyası və müsəlmanlar əziyyət çəkir. Bu gün İslam aləmi öz həllini gözləyən çoxsaylı problemlərlə üz-üzədir və əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı vardır. Bu baxımdan Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli sərəncamla ölkədə "İslam Həmrəyliyi İli" elan etməsinin çox böyük ictimai-siyasi əhəmiyyəti vardır. Müsəlman ölkələri arasında mənəvi həmrəyliyə daha çox ehtiyacın yarandığı müasir dövrümüzdə Prezident İlham Əliyevin bu mütərəqqi addımı dövlət başçımızın humanistliyinin göstəricisi olmaqla yanaşı, eyni zamanda ölkəmizin İslam dünyasının birliyinə olan həssas münasibətidir. Bu çağırış İslam coğrafiyasında yaşayan xalqların və ölkələrin iqtisadi, elmi, mədəni əməkdaşlığına, həmçinin İslam dininin irəli sürdüyü bərabərlik, ədalət, mənəviyyat, insanpərvərlik, sülh ideyalarını bir daha diqqət mərkəzinə çəkməyə xidmət edir.

Müsəlman ölkələr arasında Azərbaycan ilk ölkədir ki, İslam həmrəyliyini siyasi xətt səviyyəsinə yüksəltmişdir və bütün 2017-ci ili həmin ideyaların təbliği istiqamətində əməli fəaliyyətə həsr etmişdir. Dövlət başçımızın bu təşəbbüsü müsəlman dünyasını günümüzdə sıxan problemlərin köklü şəkildə həlli və İslam coğrafiyasında mövcud konfliktlərin dialoq vasitəsilə həllinə təkan verəcəkdir. Buna görə Azərbaycan Prezidentinin bu təşəbbüsü və qərarı İslam dünyasında böyük əks-səda doğurmaqla ciddi şəkildə müdafiə edilir.

***- İslam həmrəyliyi eyni zamanda digər konfessiyalarla həmrəyliyi nəzərdə tutur. Bu barədə fikirlərinizi bilmək istərdik.***

- Azərbaycanda milli və dini tolerantlıqla bağlı vəziyyət, konfessiyalararası dözümlülük, multikultural dəyərlərin təşviqi hər zaman nümunəvi xarakter daşımışdır. Tarixən müxtəlif etnik xalqların, din mənsublarının ümumi vətəninə çevrilən ölkəmizdə tolerantlıq düşüncəsi yüksək səviyyədə inkişaf etmiş, milli və dini zəmində heç bir ayrı-seçkilik baş verməmişdir. Dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan bütün dinlərin həmrəyliyinə çalışan ölkə kimi ad qazanmışdır. 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi Azərbaycanın öz milli-mənəvi dəyərlərinə, onun tərkib hissəsi olan İslam dininə, İslam ölkələrinin birliyinə nə dərəcədə əhəmiyyət verdiyinin göstəricisidir. Lakin İslam həmrəyliyi ideyası yalnız Azərbaycana, ölkəmizdəki dini konfessiyalara, müsəlman aləmi ilə digər konfessiyalar arasında münasibətlərə aid olmaqla bərabər, bütün dünyada gedən proseslərə təsir göstərəcək bir hadisədir. Dünyada sülhün, əmin-amanlığın bərpa olunması, bəşəriyyəti qanlı müharibə və münaqişələrdən xilas etmək üçün ilk növbədə, müxtəlif dinlərin, mədəniyyətlərin, sivilizasiyaların harmoniyasına nail olunmalıdır. Bu baxımdan Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunması təkcə İslam aləmi üçün deyil, bütövlükdə bəşəriyyət üçün böyük önəm daşıyır. Digər din nümayəndələri ilə müsəlmanlar arasında unikal birgəyaşayış modelinə malik olan ölkəmiz bu birlik çağırışı ilə yalnız dünya müsəlmanlarını deyil, etiqadından asılı olmayaraq bütün dinlərin mənsublarını birliyə, vəhdətə səsləyir.



***- Prezidentimiz cənab İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi çox böyük ictimai-siyasi əhəmiyyət kəsb edən addım kimi qəbul olunur. Artıq 2017-ci il başa çatır, ötən müddət ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu sahədə hansı işləri yerinə yetirmişdir?***

- İlk növbədə qeyd edim ki, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2016-cı il "Multikulturalizm İli"ndə olduğu kimi, 2017-ci il "İslam Həmrəyliyi İli" çərçivəsində həyata keçirdiyi tədbirlər çoxşaxəliliyi ilə seçilmişdir. Dövlət Komitəsi müxtəlif dövlət qurumları ilə birgə "İslam Həmrəyliyi ili" çərçivəsində 200-dən artıq ölkə və beynəlxalq əhəmiyyətli tədbirə təşkilatçılıq etmişdir. "İslam həmrəyliyi - zamanın çağırışı", "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası", "İslam həmrəyliyinin Azərbaycan modeli", "Heydər Əliyev irsi və İslam həmrəyliyi", "İslam həmrəyliyinin dini və irqi ayrı-seçkiliyə qarşı əhəmiyyəti", "Həmrəylik milli-mənəvi birliyimizin təzahürü kimi", "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə", "İslam həmrəyliyi İslamda birgəyaşayış ənənələrinə xidmət edir", "Gənclərin tərbiyəsində İslam həmrəyliyinin rolu", "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri", "Azərbaycanda İslam həmrəyliyinin tarixi izləri" və s. mövzularda keçirilmiş dini maarifləndirici tədbirlər, seminar müşavirələr, regional konfranslar, dəyirmi masalar və görüşlər ölkənin, demək olar ki, bütün rayon və bölgələrini əhatə etmişdir.

Eləcə də İsveçrənin Cenevrə şəhərində Komitənin bilavasitə təşkilatçılığı ilə "Mədəniyyətlərarası dialoq vasitəsilə konfliktlərin qarşısının alınması: Azərbaycan modeli" adlı beynəlxalq konfrans təşkil edilmişdir.

Qeyd edək ki, 2017-ci ilin ölkədə "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev tərəfindən təsdiqlənmiş Tədbirlər Planına uyğun olaraq, uşaq və yeniyetmələr üçün nəzərdə tutulan Qısa İslam ensiklopediyasının hazırlanması işi yekunlaşmaq üzrədir.

Cari ildə, həmçinin KİV-nin təmsilçiləri arasında "Milli-mənəvi dəyərlər və müasirlik" mövzularında yazı müsabiqələri təşkil edilmişdir. Media nümayəndələri üçün Quba rayonunda "Din-media münasibətləri: mövcud vəziyyət və beynəlxalq təcrübə" mövzusunda 3 günlük seminar-treninq keçirilmişdir.

2016-cı ildə olduğu kimi 2017-ci ildə də Dövlət Komitəsi maarifləndirici xarakterli sənədli filmlərin çəkilməsi işinə diqqət ayırmışdır. Belə ki, dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı preventiv mahiyyət daşıyan, eləcə də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə verə biləcək "Şəhadət" filminin təqdimat mərasimi keçirilmişdir. Hazırda bu film ölkənin bütün rayon və bölgələrində geniş auditoriyaya təqdim edilir. Eləcə də "Vəhdət" və "Üfüqdəki gələcək" adlı sənədli filmlərin lentə alınması işləri yekunlaşmaq üzrədir.

Qeyd edilənlərlə yanaşı, Komitə tərəfindən 80-dən çox dini təyinatlı çap məhsulları hazırlanmışdır. Müxtəlif dini və ictimai mövzuları əhatə edən bu ədəbiyyat nümunələri içərisində "Heydər Əliyev: Tolerantlıq", "İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir", "Dini radikalizmlə mübarizə: İslamdan "müsəlmana" qədər", "Dövlət, din, cəmiyyət: müqayisəli təhlil", "İslam həmrəyliyi keçmişdən bu günə", "İşğal altındakı tarixi dini abidələrimiz", "İslam mədəniyyəti: dini radikalizmə alternativ kimi", "Dini radikalizmə "DUR!" deyək!", "Dini radikalizm və xurafat: bir medalın iki üzü", "İslamda tolerantlıq prinsipləri", "İslam terrorun əleyhinədir: ikili standartlar və reallıqlar", "XXI əsrdən baxış: İslam, Quran, müsəlman", "Vəhdət naminə məzhəblərarası dialoq", "Dünyəvi dövlətdə dinin yeri", "Dini radikalizmlə mübarizədə vətəndaş cəmiyyətinin yeri və rolu" və s. qeyd edə bilərik.

***- Mübariz müəllim, "İslam həmrəyliyi" ideyası müasir dövrdə dünyada baş verən hadisələr fonunda aktuallıq qazansa da, bu ideyanı ilk dəfə İslam dünyasına elan edən, heç şübhəsiz, Ulu Öndər Heydər Əliyev olmuşdur. Bu barədə də fikirləriniz maraqlı olardı.***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İslam həmrəyliyi" ilə bağlı çağırışını məhz Ulu Öndər Heydər Əliyevin hələ 90-cı illərin əvvəllərində irəli sürdüyü "İslam birliyi" ideyasının məntiqi davamı kimi dəyərləndirmək lazımdır. Çünki dünya siyasətinin dahilərindən biri, yüksək zəkaya, uzaqgörənliyə malik olan Heydər Əliyev dünyada gedən siyasi proseslərin dərin bilicisi kimi İslam dünyasının güclənməsi, söz sahibi olması və müsəlman xalqlarının inkişaf etməsi məqsədilə hər zaman İslam ölkələrinin birliyinə, vəhdətinə nail olmağa çalışmış və hər bir müsəlman dövlətini, xalqını, şəxsini bu yolda birgə fəaliyyətə çağırmışdır. Müsəlman ölkələrinin bir çox rəhbərləri, siyasi xadimləri ilə bir neçə onilliklərə dayanan tanışlıq, Heydər Əliyev şəxsiyyətinə olan hörmət və xoş münasibət Azərbaycan Respublikasının İslam dünyasında tanıdılmasına şərait yaratmışdır. Ulu Öndər çox dəqiq bilirdi ki, dünyada dinimizə qarşı təhdidlərin artdığı, İslamın terrorla bir tutulmağa başladığı, müsəlman ölkələrində məzhəb münaqişələrinin baş verdiyi bir dövrdə yalnız həmrəylik, ortaq məxrəc, birgə atılan addımlar nəticəsində ayaq üstə durmaq, güclənmək, tərəqqiyə nail olmaq olar. Təsadüfi deyil ki, artıq 20 ilə yaxındır ki, İslam dünyasının bir çox ölkələri böyük ictimai, siyasi, hərbi və humanitar böhranlarla üz-üzə qalmış, minlərlə müsəlman münaqişələrdə həlak olmuş və ya öz yurd-yuvalarından uzaq düşərək dünyanın müxtəlif ölkələrinə üz tutmuşlar. Fəaliyyətində İslam aləmindəki həmrəylik, dostluq və qardaşlığın möhkəmləndirilməsini əsas götürən Ulu Öndər dünyanın bir çox yerlərində İslam dininin əsaslarına, müsəlman ölkələrinə qarşı qərəzli həmlələrin aparıldığı bir dövrdə dini fəaliyyət sahələrində gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək üçün fikir mübadiləsinin aparılmasını, dini-mənəvi dəyərlər məsələsinə münasibətdə dəqiq, aydın, perspektivli və vahid mövqeyin işlənib hazırlanmasını zəruri hesab etmişdir.

Qeyd edək ki, sentyabr ayının 15-də Dövlət Komitəsi, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə "İslam Həmrəyliyi ili"nə və 15 sentyabr - Bilik Gününə həsr edilmiş "Heydər Əliyev İslam həmrəyliyi ideyasının banisidir" mövzusunda Komitə əməkdaşlarının, tanınmış elm xadimlərinin, deputatların və jurnalistlərin ölkənin müxtəlif elm-təhsil müəssisələrində mühazirələri və maarifləndirici görüşləri təşkil olunmuşdur.

Eyni zamanda dini icmalar arasında Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda yazı müsabiqəsi keçirilmişdir.

***- Mübariz müəllim, xalqımızın malik olduğu milli-mənəvi dəyərlərin qorunması dövlət siyasətinin prioritet məsələlərindəndir. Prezident İlham Əliyev "İslam Həmrəyliyi İli" çərçivəsində Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması ilə bağlı müvafiq Fərman imzalaması ilə bunu bir daha nümayiş etdirdi. Bu barədə nə deyə bilərsiniz?***

# Azərbaycanda “İslam Həmrəyliyi İli”nin elan olunması təkcə İslam aləmi üçün deyil, bütövlükdə bəşəriyyət üçün böyük önəm daşıyır

## *Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

- Dövlətimiz milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində mühüm işlər görür. Ölkə rəhbəri bütün sahələrdə olduğu kimi, dini, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. “Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərinə sadiq olub. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik”- deyən Prezident İlham Əliyev hər zaman mənəvi irsimizin mühafizəçisi rolunu oynayır.

Milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunmasında və gələcək nəsillərə ötürülməsində Heydər Əliyev Fondunun və onun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və əzmkar fəaliyyətinin çox böyük rolu var. Qeyd edək ki, Heydər Əliyev Fondu “Tolerantlığın ünvanı-Azərbaycan” layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir həyata keçirmişdir. Fondun milli-mənəvi dəyərlərin unudulmaması, dünyada tanıdılması istiqamətində atdığı addımlar, gördüyü işlər təqdirəlayiqdir. Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Fond milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı istiqamətində dayanmadan çalışır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari il oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında imzaladığı Fərman milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə verdiyi yüksək qiyməti və dəstəyi bir daha bariz nümayiş etdirməklə yanaşı, dövlət başçımızın zəngin mənəvi irsimizin, ümumiyyətlə, Azərbaycan həqiqətlərinin dünya miqyasında tanıdılmasına növbəti töhfəsidir. Belə bir Fondun yaradılması xalqımızın tarix boyu formalaşdırdığı mənəvi irsini, onun əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, milli kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək düşüncəsini özündə ehtiva edir. Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsində əsas məqsəd dini mənsubiyyətindən asılı olmayaraq ölkədə fəaliyyət göstərən konfessiyaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsinin təmin edilməsidir. Belə ki, Fond mənəvi-dini dəyərləri araşdıracaq, dini qurumların və vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətin həyata keçirilməsinə, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarda), audio və videomateriallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarının hazırlanmasına dəstək verəcəkdir. Din sahəsində mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verəcək, dini təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasına, məscidlərin və digər dini abidələrin tikintisinə, bərpasına yardım göstərəcəkdir.

İdeoloji sahə ilə yanaşı, Fondun fəaliyyəti sosial sferanın müxtəlif sahələrini də əhatə edəcəkdir. Belə ki, dini radikalizmdən, alkoqolizmdən, narkomaniyadan əziyyət çəkən şəxslərin cəmiyyətə yenidən inteqrasiyası, təhsilalanların sosial müdafiəsinin gücləndirilməsinə, istedadlı şəxslərin təhsilini davam etməsinə, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına kömək edəcəkdir. Habelə aztəminatlı ailələrə dəfn xərclərinin ödənilməsi, Qarabağ müharibəsi və 20 yanvar şəhidlərinin ailələrinə, müharibə əlillərinə, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə, valideynlərini itirməsinə və ya valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində yaşamış şəxslərin həmin müəssisələri tərk etdikdən sonra yaşayış xərclərinin ödənilməsi üçün maddi yardım göstərmək də Fondun vəzifələrinə daxildir.

Xüsusən yeniyetmə və gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının aktuallıq qazandığı günümüzdə Mənəvi Dəyərlərin Təbliği Fondunun bu sahədə genişmiqyaslı fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Çünki danılmaz faktdır ki, milli-mənəvi dəyərlərimizə varislik prizmasından yanaşma həm dövlətçilik, həm də mənəvi irsimiz baxımından zəruridir. Gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında təhsilin xüsusi yeri vardır ki, Fond təhsillə bağlı qarşısına geniş məqsədlər qoymuşdur.

***- Məlumdur ki, Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə bir sıra xarici ölkələrdə və ölkəmizdə beynəlxalq xarakterli tədbirlər keçirmişdir. Keçirilmiş bu tədbirlərin əhəmiyyəti barədə nə demək olar?***

- Dövlət Komitəsi dini maarifləndirmə, milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əməkdaşlıq çərçivəsində çoxsayda tədbirlər və layihələr həyata keçirir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, “İslam Həmrəyliyi ili” çərçivəsində də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrində keçirilmiş tədbirlər xüsusilə təqdirəlayiqdir. Belə ki, “Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti”, “İslam həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında”, “İslam həmrəyliyi: Türkiyə-Azərbaycan dostluğu timsalında”, “İslam həmrəyliyi Özbəkistan-Azərbaycan dostluğu timsalında”, “İslam həmrəyliyi və dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi” və “Rusiya-Azərbaycan: sülh, təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və İslam həmrəyliyi” mövzularında Finlandiya, İran İslam Respublikası, Türkiyə, Özbəkistan, İspaniya və Rusiyada təşkil edilmiş beynəlxalq konfransların təşkilində əsas məqsəd dünyada sülhün və ümumi rifahın bərqərar edilməsi üçün ölkələr arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə bir daha diqqətin ayrılmasıdır. Bu tədbirlər Azərbaycan həqiqətlərinin dünya miqyasında təbliği baxımından da mühüm əhəmiyyət kəsb edir. Onu da qeyd edim ki, xarici ölkələrdə bu cür böyükmiqyaslı tədbirlərin uğurla keçirilməsində Qafqaz Müsəlmanları İdarəsinin, xüsusilə Şeyxülislam Allahşükür Paşazadənin mühüm rolu və zəhməti olmuşdur.

Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi ilə birgə dekabrın 6-da 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı elan edilən Naxçıvanda “Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır” mövzusunda konfrans keçirmişdir. Milli məclisin üzvləri, Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, tanınmış elm və din xadimlərindən ibarət nümayəndə heyətinin iştirak etdiyi konfransda xalqımız və ölkəmizin manefeyi naminə qəbul edilmiş tarixi əhəmiyyətli qərarların bünövrəsində duran Heydər Əliyevin uca mənəviyyat yolu, dini həmrəylik ənənəsi yad edilmişdir.

Qeyd edilənlərlə yanaşı, hər iki qurumun birgə təşkilatçılığı ilə dekabrın 21-də “İslam həmrəyliyi İli”nin yekunlaşması ilə bağlı Bakıda onlarla xarici qonağın iştirakı ilə yüksək səviyyəli beynəlxalq konfrans keçirilmişdir. “2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” adlı beynəlxalq konfransda 40-a yaxın ölkədən 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri, hökumətin və parlamentin üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfransdakı nitqində söylədiyi kimi, ölkə daxilində İslam həmrəyliyi tam təmin olunmuşdur: “Biz çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir, önəmli addımları atır... Azərbaycan müstəqillik dövründə mədəniyyətlərarası dialoqun inkişafında və İslam həmrəyliyinin güclənməsi işində öz rolunu oynayıb. Biz bundan sonra da bu yolla gedəcəyik”

## Buta naxışının ən qədim nümunəsi Naxçıvanda tapılıb



Şərq ölkələrində geniş yayılmış butanın tarixinə dair müxtəlif fikirlər söylənilib. İndiyədək onun tarixinin orta əsrlərə aid olduğu deyilirdisə, yeni tədqiqatlar bu fikirlərin doğru olmadığını göstərir. Naxçıvanda aparılan tədqiqatlar nəticəsində, muxtar respublikada buta naxışının ən qədim nümunəsi tapılıb. Bu sözləri AZƏRTAC-a müsahibəsində AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri Fizzə Quliyeva deyib.

O qeyd edib ki, son illər Naxçıvanda aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan gil qablar üzərindəki buta təsvirləri bu naxışın tarixini xeyli qədimləşdirib. Tədqiqatçılar tərəfindən tarixi Son Eneolit dövrü kimi dəyərləndirilən buta naxışlı gil qablardan bir neçəsinə Ovçular təpəsində, bir ədədinə isə Xalac yaşayış yerində rast gəlinib. Buta naxışı həmin qabların gövdə hissəsində, simmetriyaya uyğun üç ədəd olmaqla, boya ilə çəkilib.

“Demək olar ki, bütün dünyada buta naxışının ən qədim nümunəsi Naxçıvan diyarındakı qeyd etdiyimiz gil qabların üzərindədir. Tədqiqatların nəticələrindən də göründüyü kimi, tarixi minilliklər bundan öncəyə gedib çıxan buta hələ qədim dövrlərdə ulu əcdadlarımız tərəfindən yaradılıb”, - deyə Fizzə Quliyeva bildirib.

## Dəmir yolunda gücləndirilmiş iş rejimi tətbiq olunur

“Azərbaycan Dəmir Yolları” QSC-nin Sərnişin Daşımaları Departamentinin kollektivi 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində gücləndirilmiş iş rejimində çalışır. QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, departamentin kollektivi sərnişin qatarlarında xidmət mədəniyyətinin yüksəldilməsi istiqamətində ciddi işlər görür. Yeni təqvim ili ərəfəsində, sərnişin sıxlığının artması ilə əlaqədar ölkə daxilində hərəkət edən sərnişin qatarlarına hər gün tələb olunan sayda əlavə sayda vaqonların qoşulması təmin edilir. Sərnişinlərin nəzərinə çatdırılır ki, sərnişin qatarlarına bilet satışı 10 gün qabaqcadan, əlavə vaqonlara isə bilet satışı həmin vaqon qatara qoşulan gün həyata keçirilir.



# YAP Nəsimi rayon təşkilatının fəal gəncləri tələbələrlə görüş keçirib

***Hər il, mütəmadi olaraq, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə silsilə tədbir və görüşlər təşkil edir. Bu ənənəyə uyğun olaraq, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının bir qrup fəal gənc üzvü ötən gün Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin tələbələri ilə görüş keçirib.***

Tədbiri YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı açaraq, ölkədə aparılan ordu quruculuğundan danışıb: “Sabitlik və dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması Azərbaycan Prezidenti İlham Əliyevin öz vədinə sadiq olduğunu bir daha təsdiq edir. Bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran vəzifələri həll etməyə qadir olan ordudur və habelə, gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Qarabağda dalğalandırmağa qadirdir”.





Rayon təşkilatının sədri vurğulayıb ki, bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Daha sonra “Ali Baş Komandan” adlı video-çarx tədbir iştirakçılarına nümayiş etdirilib. Videoçarxın nümayişindən sonra hərbi-tibb fakültəsinin rəisi, polkovnik Çingiz Əlləzov çıxış edərək, fakültədə yaradılan şəraitdən və ordumuzun hərbi potensialından bəhs edib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “700 min ağac əkək” kampaniyası uğurla davam edir

## Ağcabədi

Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə “700 min ağac əkək” kampaniyası çərçivəsində Ağcabədi rayonunda ağacəkmə aksiyası uğurla davam edir.



Növbəti ağacəkmə kampaniyası Ağcabədi-Zərdab magistral yolunun kənarında, Ağcabədi Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin ərazisində keçirilmişdir. Ağacəkmə kampaniyasında Ağcabədi rayon icra hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Şahin Məmmədov, Milli Məclisin deputatı Tahir Rzayev, YAP fəalları, müəssisə və təşkilat rəhbərləri, 300 nəfərdən artıq nümayəndə iştirak etmişdir. İməcilik zamanı 200 həmişəyaşıl, 220 tut tingi əkilib və suvarılmışdır.

Həmin gün Ağcabədi rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinə məxsus “4 saylı Meşəbəylik” ərazisində isə 2000 heyva, nar, alça, badam, xurma və ərik ağacları əkilmişdir.

Bütövlükdə, “700 min ağac əkək” kampaniyası çərçivəsində YAP Ağcabədi rayon təşkilatı fəallarının iştirakı ilə 9670 ağac əkilmiş və suvarılmışdır. Ağacəkmə aksiyası 2018-ci ilin may ayına qədər davam edəcəkdir.

## Ağdam

Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə “700 min ağac əkək” kampaniyası çərçivəsində YAP Ağdam rayon təşkilatı Bayraq Meydanı və Bayraq Muzeyi ətrafında ağacəkmə aksiyası keçirib. Aksiyada YAP Ağdam rayon təşkilatının şura üzvləri, qadınlar şurasının və gənclər birliyinin fəalları, ərazi ilk partiya təşkilat sədrləri iştirak ediblər.



Aksiya iştirakçıları 900 ədəd ağac əkiblər.

Növbəti ağacəkmə aksiyası 2018-ci il yanvarın 13-də keçiriləcək. Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı ağacəkmə kampaniyası dövründə tədbirlər planına müvafiq olaraq, mərhələli şəkildə partiya üzvlərinin sayına uyğun ağac əkməyi planlaşdırır. Ümumilikdə, rayon üzrə 6500 ədəd ağac əkilməsi nəzərdə tutulub.

## Şabran

Şabran rayonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar “Hərəyə bir ağac əkək” kampaniyası davam etməkdədir.

Çox böyük fəallıqla həyata keçirilən ağacəkmə kampaniyasında rayonun idarə, müəssisə və təşkilatlarında çalışan yüzlərlə YAP üzvü xüsusi fəallıqla iştirak edib. 400 nəfərin iştirak etdiyi növbəti ağacəkmə aksiyasında 1500 ədəd ağac əkilib. Aksiya may ayına kimi davam edəcək və 6000 ağacın əkilməsi nəzərdə tutulub.



## Zərdab

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar “700 min ağac əkək” kampaniyası Zərdab rayonunda uğurla davam etdirilir. YAP Zərdab rayon təşkilatı rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsi ilə birgə, kampaniya çərçivəsində, Zərdab-Ucar magistral yolunun kənarında 2000 ədəd ağac əkib. Yeni əkilən ağaclara lazımi aqrotexniki qulluq göstərilib. Ekoloji mühitin sağlamlaşdırılmasına yönələn bu xeyirxah aksiyada partiyanın YAP Zərdab rayon təşkilatının fəalları, ərazi ilk partiya təşkilatlarının sədrləri, həmçinin, gənclər birliyinin üzvləri iştirak ediblər. Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatı ağacəkmə kampaniyası dövründə tədbirlər planına müvafiq olaraq üzvlərinin sayına uyğun ağac əkməyi planlaşdırır.



***ZÜMRÜD***

## Gənclər və İdman Nazirliyi 2017-ci ilin ən yaxşılarını mükafatlandırıb

*SİA ilin ən yaxşı informasiya agentliyi seçilib*



Gənclər və İdman Nazirliyi 2017-ci ilin yekunları ilə bağlı tədbir keçirib. SİA-nın məlumatına görə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təşkil edilən tədbirdə Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, gənclər və idman naziri Azad Rəhimov, nazir müavini İntiqam Babayev, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Fuad Muradov, ADBTİA-nın rektoru Fuad Hacıyev və digərləri iştirak ediblər. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra 2017-ci ilin yekunları ilə bağlı hesabat-videoçarx nümayiş edilib.

Çıxış edən nazir A.Rəhimov 2017-ci ilin Azərbaycan idmanı üçün uğurlu olduğunu bildirib. O, geridə qalmaqda olan ildə idmançılarımızın beynəlxalq arenada çoxlu sayda medal qazandığını, ölkəmizdə dünyanın ən mötəbər beynəlxalq idman yarışlarının təşkil edildiyini vurğulayıb. Nazir ölkəmizdə keçirilən Formula-1 üzrə Azərbaycan Qran Prisi və IV İslam Həmrəyliyi Oyunlarını xüsusi qeyd edib. A.Rəhimov Azərbaycanda fəaliyyətə başlamış Antidopinq Agentliyinin işinin yüksək səviyyədə qurduğunu vurğulayıb. O, 2017-ci ildə əldə olunmuş digər uğurlar haqqında ətraflı məlumat verib.

MOK-un vitse-prezidenti Ç.Hüseynzadə çıxış edərək Azərbaycanda idmanın inkişafı haqqında danışıb. O, ölkəmizin həm fiziki, həm də intellektual cəhətdən güclü idmançılara sahib olduğunu deyib. MOK-un vitse-prezidenti şahmatçılarımızın qazandıqları uğurları önə çəkib. O, “Qarabağ” futbol klubunun da əldə etdiyi tarixi nailiyyətdən söz açıb. Ç.Hüseynzadə dövlət başçımız İlham Əliyeyin MOK-un Prezidenti seçilməsindən sonra ölkə idmanınının sürətlə inkişaf etdiyini vurğulayıb. O, Azərbaycanın həm də dünyanın ən mötəbər idman yarışlarını yüksək səviyyədə təşkil etdiyini qeyd edib. MOK-un vitse-prezidenti Azərbaycan idmanına və idmançılarına uğurlar arzulayıb.

Daha sonra 2017-ci ilin ən yaxşıları mükafatlandırılıb. Qeyd edək ki, “Səs” İnformasiya Agentliyi 2017-ci ilin ən yaxşı informasiya agentliyi seçilib. Mükafatı agentliyin əməkdaşına ADBTİA-nın rektoru Fuad Hacıyev təqdim edib.

# Müstəqil Azərbaycanı tərəqqiyə, firavan gələcəyə aparan LİDER!



*Kamaləddin QAFAROV,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin deputatı*

***İctimai-siyasi və sosial-iqtisadi həyatının müstəqillik dövrünü yaşayan Azərbaycanın sürətli və ardıcıl inkişafına təkan verən amillər böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Ulu Öndər Heydər Əliyevin qurduğu Azərbaycan müasir dövrümüzdə Onun siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və dünya birliyinin layiqli üzvü kimi müstəqil siyasət həyata keçirir.***

Bu gün dünyada baş verən mürəkkəb siyasi proseslərdə Azərbaycan Prezidentinin qətiyyətli addımları ölkəmizin sabit və sakit bir şəraitdə inkişafına səbəb olan amildir. İqtidar və xalq birliyi də burada önəmli faktordur. Prezident İlham Əliyev ən mürəkkəb vəzifələrin öhdəsindən inamla gəlir, milli maraqlar çərçivəsində real müstəqil daxili və xarici siyasət həyata keçirir. Artıq 14 ildir ki, hər bir azərbaycanlının Prezidenti kimi uğurlu fəaliyyət göstərən Cənab İlham Əliyev, ötən müddət ərzində, gördüyü nəhəng işləri və reallaşdırdığı çoxsaylı layihələri ilə adını dünyanın müdrik siyasi liderləri sırasına qızıl hərflərlə həkk edib. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində, ölkəmiz beynəlxalq aləmdə nüfuzunu xeyli artırıb. Onun uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Azərbaycan dünya ölkələri və beynəlxalq təşkilatlarla bərabərhüquqluluq, qarşılıqlı etimad, faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli və çoxtərəfli əlaqələrini daim inkişaf etdirir. Təkcə onu göstərmək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Həqiqətən də, Azərbaycan son 14 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan ölkədir: “İkitərəfli əlaqələr inkişaf edir və biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var”. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. Prezidentin reallaşdırdığı siyasət, ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, intellektual səviyyəsi və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün yüksək keyfiyyətləri mənimsəməsi, bir daha sübut edir ki, o, bu statusa malik olan alternativsiz dövlət xadimidir. 2003-2017-ci illər Azərbaycanda sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm mərhələ olub. Bu dövr ərzində Azərbaycan istər siyasi, istərsə də iqtisadi sahədə uğurlar qazanıb. Ötən müddətdə regionlarda infrastrukturun yenidən qurulması və inkişafı, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər reallaşdırılıb. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin, başlıca olaraq bir məqsədi var: Bu, Azərbaycan vətəndaşının maraqlarıdır və ölkə vətəndaşlarının həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsidir. Ona görə də, vətəndaşlar Prezidentə olan sədaqəti, inamı ölkə başçısının da xalqa olan münasibəti, qayğısı və diqqəti vəhdət təşkil edir. Beləcə, xalq-iqtidar birliyi də burada öz sözünü deyir. Cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. O, hər bir vətəndaşının problemini öz problemi, qayğısını öz qayğısı kimi qəbul edir və məhz buna görə, iştirak etdiyi bütün seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini və etimadını qazanır. Dövlət başçısı dəfələrlə sübut edib ki, parlaq zəkası, peşəkar idarəçilik qabiliyyəti və praqmatik yanaşması ilə Azərbaycanı daha böyük zirvələrə aparacaqdır.

### MÜASİR AZƏRBAYCAN SİYASİ VƏ İQTİSADİ ÇƏKİSİNƏ GÖRƏ DÜNYANIN ƏN NƏHƏNG ÖLKƏLƏRİ İLƏ MÜQAYİSƏ OLUNUR

Bu gün Azərbaycan dünyanın ən müasir və inkişaf etmiş ölkələri sırasındadır. Hətta Azərbaycan siyasi və iqtisadi çəkisinə görə, dünyanın ən nəhəng ölkələri ilə müqayisə olunacaq dərəcədə işlər görüb. Təbii ki, bu işlərin də müəllifi Azərbaycan Prezidenti İlham Əliyevdir. Qətiyyətlə deyə bilərik ki, iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından uzaq olmasına zəmin yaratdı. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində iqtisadiyyatın inkişafında neft amilinə verilən yüksək dəyərin nəticəsi, təbii ki, Azərbaycanın bugünkü reallıqlarıdır. Hər sahədə qazandığımız uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndərin irsinin layiqincə yaşadılması dayanır. Müasir, modern dövlət olaraq tanınan ölkəmiz Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində getdikcə daha da inkişaf, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycanın mövqeyini möhkəmləndirərək, 37-ci yerdən 35-ci yerə yüksəlməsi və bu göstəriciyə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək, MDB məkanında şəriksiz liderə çevrilməsi inkişafımızın daha bir göstəricisi oldu. Bu və ya digər göstəricilər, statistik rəqəmlər Azərbaycan haqqında çox reallıqları əks etdirir. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru sayılan “Əsrin Müqaviləsi” Azərbaycanın müstəqillik tarixində imzalanan ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdəndir. Tarixi müqavilə müasir və qüdrətli Azərbaycanın təməlini möhkəmlətdi. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə, iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan “Əsrin Müqaviləsi”nin imzalanması ilə başlamış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində, “Əsrin Müqaviləsi” Azərbaycanı investisiyalara açıq dövlətə çevirdi və xarici investorlar, bu layihə təsdiqini tapdıqdan sonra, sərbəst şəkildə ölkəmizə investisiya yatırmağa başladılar. Müqavilənin izalanması güclü Azərbaycanın əsasını qoydu. Bu il Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edildi və yenidən tərtib olunmuş Saziş imzalandı və “Azəri-Çıraq-Günəşli” neft yataqlarının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Müqavilənin uzadılması gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcək. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, 1994-cü ildə imzalanmış kontraktın, bizim maraqlarımızı tam təmin etməsinə baxmayaraq, bu dəfə isə, daha da yaxşı şərtlərlə kontrakt imzalanır. Bu şərtlərin isə, Azərbaycanın gələcək inkişafında əhəmiyyəti böyükdür. Neftdən əldə olunan gəlir qeyri-neft sektorunun inkişafına yönəldilir ki, bu da ölkə iqtisadiyyatının bütünlüklə çiçəklənməsi deməkdir. Həyata keçirilən qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində, bu gün neft Azərbaycan xalqının rifahına xidmət edərək, ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin və insanlarımızın rifahının təmin edilməsinə yönəldilib. Tarixi reallıqlara və statistik göstəricilərə əsaslanaraq, deyə bilərik ki, neft gəlirləri nəticəsində baş vermiş iqtisadi tərəqqi əhalinin gəlirlərinin artmasına, yoxsulluğun azaldılmasına və başqa sahələrdə irəliləyişə səbəb oldu. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan öz neft kapitalını insan kapitalına çevirir.

### AZƏRBAYCANIN SEÇDİYİ STRATEJİ YOL ÖLKƏMİZİ UĞURLU TARİXƏ VƏ İŞIQLI GƏLƏCƏYƏ APARIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi və ölkəmizdəki ictimai-siyasi sabitlik sayəsində Azərbaycan hər sahədə inkişaf edir. Maliyyə böhranı, dünya dövlətlərini büdcə xərclərini azaltmağa məcbur etdiyi zamanda, Azərbaycanda səhiyyənin, təhsilin inkişafına, bu və ya digər sahələrin maddi-texniki bazasının gücləndirilməsinə diqqət artır. İnsanların sağlamlığının qorunması və təhsilin inkişafı prioritet məsələ kimi diqqətdədir. Gələcək nəslin sağlam böyüməsinə daimi diqqətin nəticəsidir ki, həm paytaxtda, həm də ölkənin müxtəlif bölgələrində tibb müəssisəsində təmir-tikinti işləri aparılıb, yeni müəssisələr istifadəyə verilib. Nəticə olaraq, bu gün deyə bilərik ki, dövlət tərəfindən bu proqramlara ayrılan vəsait həm minlərlə insanın müalicəsini, həm də səhiyyənin müxtəlif sahələrinin inkişafını təmin edib. Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar və görülən işlər standartlar tələbindədir. Prezident İlham Əliyevin dediyi kimi, biz artıq Azərbaycan standartlarından da danışa bilərik: “Çünki indi dünya səviyyəsində müxtəlif elmi mərkəzlər var və bizim mərkəzlər - son illər ərzində təmir edilmiş, yaxud da ki, yeni tikilmiş mərkəzlər bütün cəhətlərdən ən yüksək səviyyədədir: həm keyfiyyət, həm rahatlıq, palataların ölçüləri, xəstələrə, həkimlərə yaradılmış şərait və əlbəttə ki, avadanlıq”.

Bu gün dünyada elə bir cərrahi müdaxilə növü yoxdur ki, o, Azərbaycanda icra olunmasın. Qeyd edək ki, bədxassəli xəstəliklərə mübtəla olmuş uşaqlara qayğı dövlətimizin daim diddi nəzarəti altındadır. Nazirlər Kabinetinin 11 noyabr 2016-cı il tarixli qərarı ilə “2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı” qəbul edilib. Bu proqram qanın bədxassəli xəstəliklərinin diaqnostikasının və müalicəsinin müasir səviyyəyə çatdırılmasına, 2017-ci ildən başlayaraq, xəstəliklərin dövlət hesabına innovasion preparatlarla təminatına imkan yaradacaqdır.

Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasının istifadəyə verilməsi səhiyyənin ən ağrılı problemlərinin həlli istiqamətində görülən əvəzsiz və çox böyük işdir. Klinika müasir təbabətin qlobal problemlərindən olan uşaqlarda onkoloji xəstəliklərin fəsadlarına qarşı mübarizədə çox mühüm funksiyanı yerinə yetirir. Bütün bunlar, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasəti sosialyönümlüdür. Onun mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bunlar ölkə Prezidentinin həyata keçirdiyi islahatlarda tətbiq olunur. Sözsüz ki, buna Azərbaycanın iqtisadi tərəqqisi təkan verir. Etiraf edək ki, davamlı və dinamik inkişafı özündə ehtiva edən milli inkişaf modeli ilə tanınan Azərbaycan hazırda inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır. Artıq ölkəmizdə yeni layihələr həyata keçirilir. Prezident İlham Əliyevin Fərmanı ilə “Yol xəritələri” təsdiq olunub. Bu “Yol xəritələri” uzunmüddətli perspektivlərə xidmət edir.

Bəli, 14 il ərzində, Azərbaycan uğurlu inkişaf tarixini yaşayıb. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir və bu yol Azərbaycanı daha uğurlu bir tarixə - gələcəyə aparır. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Azərbaycanın ötən illərdəki uğurlarının fonunda işlənib- hazırlanan və təsdiqlənən “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası da Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmağa istiqamətlənib. 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən daha da inkişaf etmiş, rəqabətqabiliyyətli bir ölkə olacaqdır.

Ölkəmizin 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gələrək, qazandığı biri-birindən əhəmiyyətli uğurları ilə dünyanın diqqətindədir. Bu gün son illərin uğurlarından bəhs ediriksə, gələcəkdə daha möhtəşəm uğurlardan danışacağıq. Həyat davam edir və bu davamlılıq inkişaf və tərəqqi ilə müşayiət olunanda, daha böyük ruh yüksəkliyi yaradır. Bu uğurlara yol açan əsas amil isə, möhkəm təmələ əsaslanan siyasətdir və bütün xalqımız kimi, biz də bu siyasətin və tərəqqinin baş memarı olan Azərbaycan Prezidenti İlham Əliyevi ad günü münasibəti ilə ürəkdən təbrik edir, ona yeni-yeni nailiyyətlər arzulayırıq. Bu gün Azərbaycan xalqı inamlı şəkildə öz Liderinə arxalanır, məhz öz sevimli Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisi yolunda inamla irəliləyir. Bu yolumuz isə əbədi və dönməzdir!

# Ölkəmiz regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

**_Dünyada əlverişsiz iqtisadi proseslərin davam etdiyi, qonşu regionlarda silahlı münaqişələrin və qanlı terror aktlarının baş verdiyi bir dövrdə Azərbaycan, ölkə başçısının uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir._**



Sürətli sosial-iqtisadi inkişafını yaşayan Azərbaycanın əldə etdiyi uğurlar və tərəqqi hər bir vətəndaşın həyatında hiss olunur, bununla da, insanların rifah halı günü-gündən yaxşılaşır. Əhalinin maddi gəlirlərinin davamlı şəkildə çoxalması, əməkhaqqı və pensiyaların, eləcə də, büdcədən maliyyələşən insanlara ödənilən vəsaitlərin Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, vaxtaşırı artırılması və bu qəbildən olan digər tədbirlər ölkədə sosial sferada vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm amillərdir. Bütün bunlarla yanaşı, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Artıq 25 ildir Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Bu gün bir milyondan çox qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Davos Forumunun son hesablamalarında iqtisadiyyatların rəqabətqabiliyyətliliyinə görə, Azərbaycan dünya miqyasında 35-ci yerdədir. 2003-cü ildə Azərbaycanda yoxsulluq səviyyəsi 49 faiz idisə, bu gün bu rəqəm 5 faizdir.

Qeyd edək ki, Cənab İlham Əliyevin Prezident kimi imzaladığı ilk sərəncamlarından biri 2004-cü ildə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı ilə bağlıdır. Dövlət Proqramına uyğun olaraq, qaçqın və məcburi köçkünlərin sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatına uyğun olan lazımi tədbirlər mərhələlərlə həyata keçirilir. Təqdirəlayiq haldır ki, bu gün ölkədəki bütün qaçqın və məcburi köçkünlər dövlətin təminatındadır, onların problemlərinin həlli isə dövlət rəhbərliyinin gündəlik diqqət mərkəzindədir. Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirən Prezident İlham Əliyev tərəfindən 2003-2017-ci illərdə 50-dən artıq Fərman və Sərəncam imzalanıb. 2007-ci ildə ölkədə qaçqın və məcburi köçkünlər üçün salınan 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,2 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. Statistik rəqəmlərə diqqət etsək, görərik ki, qaçqın və məcburi köçkünlər arasında yoxsulluğun səviyyəsi 75 faizdən 12 faizə enib. Bölgələrdə məcburi köçkünlər üçün 100-ə yaxın müasir yaşayış kompleksi salınıb, 250 min köçkün yeni mənzillə təmin olunub, salınan müasir qəsəbələrdə 150 məktəb, 60 tibb mərkəzi və uşaq bağçası inşa edilib. Bakı şəhərində və Abşeron rayonu ərazisində də 3 qəsəbə, 9 məhəllə salınıb, 6500 ailə və 29 min nəfər yeni mənzillərə köçürülüb. Bu qəsəbələr bütün lazımi infrastrukturla təmin olunub. İndiyədək 50 mindən çox ailənin və ya 250 mindən çox qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət göstərir. Belə ki, bu ilin mayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən "Ümid Yaşayış Kompleksi"nin təməli qoyulub. Abşeron rayonunun Masazır, Mehdiabad, o cümlədən, Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib.

## BU İL 2300 AİLƏ YENİ MƏNZİLLƏRƏ, EVLƏRƏ KÖÇÜRÜLÜR, GƏLƏN İL DƏ BU PROSES DAVAM ETDİRİLƏCƏKDİR

Bu günlərdə isə 1170 məcburi köçkün ailəsi üçün Tərtər rayonunda inşa olunan dördmərtəbəli 34 yaşayış binasının açılışı oldu. Açılış mərasimində çıxış edən Azərbaycan Prezident İlham Əliyev bildirib ki, məcburi köçkünlərin problemlərinin həlli bizim üçün əsas məsələdir:" ... köçkünlərin problemləri daim diqqət mərkəzindədir və bizim üçün prioritet təşkil edir. Bu, sayca 97-ci qəsəbədir ki, Azərbaycan dövləti köçkünlər üçün istifadəyə verir. Bu qəsəbələrdə 250 mindən çox insan evlərlə və mənzillərlə təmin edilibdir. Bu il 2300 ailə yeni mənzillərə və evlərə köçürülür, gələn il də bu proses davam etdiriləcəkdir. Gələn il ən azı 4 min köçkün ailəsi yeni mənzillərə və evlərə köçürüləcəkdir. Bu, Azərbaycan dövlətinin siyasətini göstərir".

Cənab Prezident çıxışında bu il köçkünlərin həyatında digər önəmli hadisənin baş verdiyini və uzun fasilədən sonra Cocuq Mərcanlı kəndinə həyat qayıtdığını bildirib. Qeyd edib ki, Cocuq Mərcanlı kəndinin bərpası istiqamətində indi son addımlar atılır. Birinci mərhələdə 50 ev istifadəyə verilib: "İndi isə əlavə 100 evin tikintisi başa çatıb və tezliklə o evlərə də Cocuq Mərcanlı kəndinin sakinləri yerləşəcəklər. Orada da bütün infrastruktur yaradılıb, məktəb, tibb məntəqəsi və Şuşa məscidinin bənzəri olan məscid tikilib. Yeni Cocuq Mərcanlıya həyat qayıdıb. Cocuq Mərcanlı kəndinin bərpası xüsusi məna, rəmzi xarakter daşıyır. Onu göstərir ki, Azərbaycan xalqı və Azərbaycan dövləti heç vaxt işğalla barışmayıb və barışmayacaq".

Heç bir şübhə yoxdur ki, davamlı səylər nəticəsində, ölkəmizin ərazi bütövlüyü yaxın zamanda bərpa ediləcək. İşğaldan azad olunacaq ərazilərdə Azərbaycan dövlətinin yenə öz imkanları hesabına həyat tamamilə yenidən qurulacaq və məcburi köçkün olan soydaşlarımız öz ata-baba yurdlarına qayıdaraq, öz doğma torpaqlarında yaşayacaqlar. Bu zaman onlar yenə dövlətin xüsusi qayğısı ilə əhatə ediləcək və bütün sosial problemləri öz həllini tapacaq. Buna hər kəs inanır və Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Rusiya şirkətləri Azərbaycana 3 milyard 700 milyon dollar həcmində investisiya yatırıb



Rusiya şirkətləri Azərbaycana 3 milyard 700 milyon dollar həcmində investisiya yatırıb. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, hər iki ölkə arasında ticarət dövriyyəsi, investisiya həcmləri ildən-ilə artır. Azərbaycan şirkətləri Rusiyaya 1 milyard dollardan çox investisiya yatırıb. 700-ə yaxın Rusiya qeydiyyatında olan şirkət Azərbaycanda uğurla fəaliyyət göstərir. Nazir qeyd edib ki, Azərbaycanın ilk ticarət nümayəndəsi Rusiya Federasiyasına təyin olunub, Azərbaycan şirkətləri Rusiyada keçirilən sərgilərdə uğurla təmsil olunur, Azərbaycan məhsulları Rusiya telekanallarında reklam edilir, şirkətlərimiz iqtisadi forumlarda iştirak edir. Bu isə qarşılıqlı əlaqələrin daim inkişafda olduğunun göstəricisidir.

## Dövlət Statistika Komitəsi: Ölkə üzrə 205 min 696 ton pambıq tədarük olunub

Dekabrın 25-dək ölkə üzrə 205 min 696 ton pambıq tədarük olunub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ötən iki gündə 459 ton məhsul təhvil verilib. Xatırladaq ki, ölkədə pambıq istehsalı üzrə ən yüksək nəticə 1981-ci ildə əldə olunmuşdu. O vaxt Azərbaycanda 1 milyon tondan çox pambıq yığılmışdı. Sonradan bu sahəyə diqqətin zəifləməsi pambıqçılıqda tənəzzülün yaranmasına gətirib çıxardı. Hazırda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər çərçivəsində ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın inkişafı ön plana keçib, bu sahəyə dövlət dəstəyi artırılıb.

## "2018-ci il münaqişənin həlli ili ola bilər"

*Azər Badamov: "Müharibəsiz işğala son qoyulması istiqamətində imkanlar tükənməyib"*



Müsahibimiz millət vəkili Azər Badamovdur

***- Azər müəllim, 2017-ci il başa çatmaqdadır. Sizcə, bu il Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər hansı bir sülhə xidmət edə biləcək hadisələr baş verdimi?***

- 2017-ci il başa çatmaq üzrədir. Yola saldığımız ildə Dağlıq Qarabağ münaqişəsi ətrafında çoxsaylı görüşlər və müzakirələr aparıldı. Təəssüf ki, konkret bir nəticə əldə olunmadı. Buna baxmayaraq, münaqişənin danışıqlar yolu ilə həll edilməsi prosesi aktiv fazaya keçmişdir və ona görə də, deməyə imkan verir ki, müharibəsiz işğala son qoyulması istiqamətində imkanlar tükənməyib. Pisi odur ki, danışıqlar aparmaq potensialı tükənsin və çıxış yolu ancaq müharibə etməyə qalsın. Bu baxımdan, 2017-ci ili Dağlıq Qarabağ münaqişəsinin həlli baxımdan görülmüş işləri müsbət hesab edirəm.

***- Bəzi ekspertlərdə qeyd edirlər ki, əvvəlki illərlə müqayisədə 2017-ci ildə Dağlıq Qarabağ münaqişəsinin həllində daha əhəmiyyətli çağırışlar, görüşlər və çıxışlar oldu. Doğrudanmı diqqəti cəlb edən hadisələr baş verdi?***

- Qeyd etdiyim kimi, 2017-ci ildə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı çoxlu cəhdlər oldu. Amma Sarkisyan məsələdə konstruktiv mövqe nümayiş etdirmədi. Ona görə də, bu istiqamətdə konkret addım atılmadı. Lakin beynəlxalq miqyasda ölkəmizin mövqeyini möhkəmlədən və Dağlıq Qarabağ münaqişəsinin həllinə təsir göstərə biləcək mühüm qərar qəbul olundu. Bu, Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı ölkələrin sammitində qəbul olunmuş beynəlxalq səviyyədə tanınmış sərhədlərin separatizm meyillərinin istəyi ilə dəyişdirilməsinin yolverilməzliyi ilə əlaqədar olmuşdu. Bu qərar həm də beynəlxalq səviyyədə Azərbaycanın qələbəsi və Ermənistanın məğlubiyyəti idi. Çünki erməni separatçıları, ümid edirdilər ki, Azərbaycan torpaqlarında yaratmaq istədikləri ikinci erməni dövlətini nə vaxtsa beynəlxalq ictimaiyyət tərəfindən tanıdacaqlar. Amma qəbul edilmiş bu qərar ermənilərin niyyətlərini puça çıxartmış oldu.

***- Növbəti ilin birinci ayında Ermənistan və Azərbaycan xarici işlər nazirinin və daha sonra isə prezidentlərin görüşü nəzərdə tutulur. Ümumilikdə, 2018-ci illə, yəni Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı proqnozlar nədən ibarət ola bilər?***

- Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin və prezidentlərinin görüşlərinin tez-tez baş tutmasını müsbət dəyərləndirirəm. Görüşlər nə qədər çox olarsa, ortaq məxrəcə gəlmək şansları da çoxalar. 2018-ci ildə də bu istiqamətdə intensivləşməni gözləyirəm. Çünki münaqişə həmişə davam edə bilməz. Münaqişə tez həll olunmalı və regionda normal ritmli həyat şəraiti bərpa olunmalıdır. Son vaxtlar Ermənistanla Rusiya arasında baş verən hadisələr, Azərbaycanın mövqelərinin möhkəmlənməsi, dünya tərəfindən hörmətlə qarşılanmağı və tərəfdarlarımızın çoxalması, deməyə imkan verir ki, 2018 - ci ildə Dağlıq Qarabağ münaqişəsinin həllində müsbət meyillər çoxalacaq. Hətta müharibənin başa çatması istiqamətində müəyyən nəticələrin əldə olunması ehtimalı da var. Burada əsas məsələ beynəlxalq ictimaiyyətin ermənilərə təsiri əsas rol oynayır. Çox güman ki, 2018-ci il münaqişənin həlli ili ola bilər.

**GÜLYANƏ**

# Rəsul Quliyev AXCP və Müsavatın hədəfindədir

## Tahir Kərimli: "Bu dəfə də müxalifət rüsvayçı məğlubiyyətlə üzləşməli olacaq"



Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir

***- Tahir bəy, "Gələcək Azərbaycan Partiyası"nın lideri Rəsul Quliyev AXCP və Müsavatın təşkilatçılığı ilə qarşıdurmalar planlaşdırıldığını iddia edib. Sizcə, müxalifətin belə bir planı ola bilərmi?***

- Rəsul Quliyevin AXCP ilə Müsavat haqqında dediyi fikirlər inandırıcı deyil. Yəni AXCP sədri Əli Kərimli və Müsavat başqanı Arif Hacılının bir araya gələrək, hansısa plan həyata keçirməyə çalışmaları, mümkün deyil. Çünki bu iki partiya bir-birini qəbul etməyən və bir-birinə düşmən kəsilən partiyalardır. Uzun illərdir ki, AXCP ilə Müsavat arasında ciddi qarşıdurmalar var. Bu baxımdan da, adları çəkilən bu iki partiyanın bir araya gələrək, nə isə bir iş görməsi reallığı özündə əks etdirmir. AXCP ilə Müsavat arasında, düşərgə daxilində "ana" müxalifət, "vahid lider" və prezidentliyə "vahid namizəd" olmaq uğrunda ciddi ziddiyyətlər və fikir ayrılıqları mövcuddur. Belə olan halda da, onların birləşib, birgə iş görmələri qeyri-mümkündür.

***- Sizcə, müxalif partiya funksionerləri niyə bir araya gələ bilmirlər?***

- Bu gün, məhz müxalifət düşərgəsində olan partiyaların bir-biri ilə yola getməmələrinin nəticəsidir ki, müxalifət rüsvayçı vəziyyətlə üzləşib. Müxalifət təmsilçiləri üçün partiya maraqları yox, özlərinin şəxsi maraqları daha üstündür. Belə olan halda da, müxalifətin vəziyyəti bu cür acınacaqlı bir duruma düşür. Bir sözlə, müxalifətin belə bir vəziyyətə düşməsinin səbəbini başqasında yox, özlərində axtarsınlar. Yaxşı olardı ki, müxalifət boş-boş məsələlər ilə məşğul olmaqdandısa, özləri arasında olan problemlərin həlli ətrafında düşünsün.

***- R.Quliyevin, Ə.Kərimli - A.Hacılı qarşıdurmasından istifadə edərək, önə çıxmaq niyyətinin olduğunu demək olarmı?***

- Müxtəlif partiyalar yaratmaqla, özünü gündəmə sırımağa çalışan R.Quliyev, bununla siyasi dividend əldə edəcəyini düşünüb. Amma siyasi cəhətdən naşı və sosial baza baxımından zəif imkanlara malik olması, ona arzu etdiklərini reallaşdırmağa imkan verməyib. Hazırkı məqamda AXCP ilə Müsavat arasında baş verən qarşıdurmadan yararlanaraq, öz şəxsi maraqlarını təmin etməyə cəhd etmək, onun üçün əlverişli olardı. Amma bir məsələni nəzərə alaq ki, R. Quliyevi hətta düşərgə daxilində belə qəbul etmirlər. Həm də, o, AXCP və Müsavatın da hədəfindədir. Çünki ötən illərdə dəfələrlə R.Quliyev həm AXCP-ni, həm də Müsavatı kəskin tənqid edib. Belə olan halda, onların arasında nə isə bir münasibətin yaranması inandırıcı deyil. Yəni R.Quliyevin AXCP ilə Müsavat arasında yaranan qarşıdurmadan öz şəxsi maraqları üçün istifadə etməsi mümkünsüzdür.

***- Qaşıdurmalara əsaslanaraq düşərgənin "vahid namizəd" məsələsində ortaq məxrəcə gələ bilməyəcəyini demək olarmı?***

- Müxalifət düşərgəsini təmsil edən şəxslər özləri də çox gözəl bilirlər ki, qarşıdan gələn prezident seçkilərində bunların qalib olmaq şansları sıfıra bərabərdir. Çünki onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Belə olan halda da, hər zaman olduğu kimi, bu dəfə də müxalifət rüsvayçı məğlubiyyətlə üzləşməli olacaq. Digər tərəfdən, özlərinin varlıqlarını ortaya qoymaqdan ötrü və xarici maraqlı qüvvələrə özlərini reklam etdirməkdən ötrü müxalifət hay-küy salmağa cəhdlər göstərəcək. Ancaq say-küy bir qədər sonra səngiyəcək. Bu gün müxalifət daxilində elə lider yoxdur ki, bütün onları öz ətrafında birləşdirsin və "vahid namizəd" olsun. Demək olar ki, bu gün müxalifət daxilində gedən mübarizənin əsas səbəbi də düşərgə daxilində liderin olmamasıdır. Hesab edirəm ki, hər zaman olduğu kimi, bu il də xarici məkrli qüvvələr öz pozucu niyyətlərini həyata keçirmək üçün daxildə olan müxalifətdən bir vasitə kimi istifadə etməyə çalışacaqdır. Amma həm xarici, həm də daxili qüvvələrin nə düşünmələrindən və nə etməsindən asılı olmayaraq, onların ölkəmizlə bağlı planları baş tutmayacaqdır. Çünki xalq onları rədd edir. Həm də xalq-hakimiyyət birliyi möhkəm əsaslara söykənir.

**GÜLYANƏ**

# Azərbaycan Ordusunun gücü işğalçıları vahimədə saxlayır!

## Rusiyali hərbi ekspertlər ermənilәri bu cür məyus etdilər



Azərbaycan Ordusunun bütün istiqamətlərdəki inkişafı və modernləşdirilməsi, ən müasir texnika və silahlarla təchizi, hərbi qulluqçularının yüksək səviyyəli təlimləri və döyüş ruhunun daim yüksəkdə olması bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, ölkəmizin silahlı qüvvələri regionun ən güclü ordusu olaraq qəbul edilməkdədir. Hələ 2016-cı ilin aprel müharibəsi zamanı əldə edilən şanlı zəfər, bilavasitə bu faktorun məntiqi nəticəsidir. Əbəs deyil ki, bu gün işğalçı Ermənistan mediasında son günlərədək məğlubiyyət sindromunu əks etdirən yazı və məqalələr, politoloq və ekspert rəyləri işıq üzü görür.

Misal üçün, Ermənistanın aparıcı saytlarından biri olan 1.in.am saytı Rusiyanın tanınmış hərbi eksperti Pavel Felqenqauerdən müsahibə alaraq, bir daha erməni ordusunun zəifliyini, məğlub durumda olduğunu dərk etmək məcburiyyətində qalıb (http://ru.1in.am/1209459.html).

### Pavel Felqenqauer: "Bu, sizin günahınız deyil, sizin bəlanızdır"

Aprel müharibəsinə toxunan rusiyalı hərbi ekspert, qeyd edib ki, bu müharibə erməni ordusunun çatışmazlığını, eləcə də, hərbi və döyüş hazırlığı sahəsindəki uğursuzluğunu sübuta yetirdi. "Əgər Azərbaycan dayanmasaydı, növbəti hadisələrin necə cərəyan edəcəyini təsəvvürə gətirmək mümkün olmazdı"-deyə qeyd edən Felqenqauerə görə, Ermənistan ordusu baş verənlərdən dərs çıxarsa da, bir sıra fundamental məsələlər qalmaqda davam edir. SİTAT: "Bu, Ermənistan silahlı qüvvələrinin geridə qalmasıdır. Bu, sizin günahınız deyil, sizin bəlanızdır".

Hərbi ekspert erməni ordusunda Azərbaycan Ordusunda olan müasir hərbi texnikanın və avadanlıqların olmadığını deyib və buna misal olaraq, bildirib ki, Azərbaycanda zərbə endirən pilotsuz uçuş aparatları var və aprel müharibəsi dövründə həmin uçan aparatlar erməni zirehli maşınlarını və texnikalarını məhv etdi. "Yerevanda bənzər uçan aparatlar yoxdur"-deyə qeyd edən Felqenqauer belə hərbi avadanlığın heç Rusiyada da olmadığını vurğulayıb: "Hətta Rusiyada bu cür uçan pilotsuz təyyarələr yoxdur. Azərbaycan bir sıra məsələlərdə, hətta Rusiyadan da irəlidədir, çünki israillilər Azərbaycanı bu kimi texnikalarla təchiz edirlər, Rusiyada isə beləıəri yoxdur. Amerika da bənzər hərbi texnikanın Rusiyaya göndərilməsinin əleyhinədir. Biz isə, öz gücümüzlə bu cür pilotsuz təyyarələri istehsal etmək gücündə deyilik".

### "Azərbaycanın hərbi-texnki üstünlüyü necə idisə, elə də qalmaqda davam edir"

P.Felqenqauer sözlərinə əlavə olaraq bildirib ki, əgər Rusiya iddia edirsə ki, zərbə endirən pilotsuz təyyarələri təxmini olaraq düzəldib, bu zaman "təxmini" və "düzəldib" ifadələrinin ayrı-ayrı məhfhumlar olduğunu anlamaq lazımdır. "Rusiyada zərbə endirən pilotsuz təyyarələr yoxdur, kəşfiyyat xarakterli pilotsuz təyyarələr var ki, onlar da İsrail istehsalıdır"-deyə xatırladan hərbi ekspert erməni ordusunda, ümumiyyətlə, bu adda hər hansı bir hərbi texnikanın olmadığını əminliklə bildirib: "Yerevanda, ümumiyyətlə, belə texnika yoxdur. Bu, çox ciddi faktordur, xüsusilə mövqelər müharibəsi baş verərsə... Ermənistan hərbi texnika baxımından geri qalır. Ermənistanın Sovet zamanlarının, Azərbaycanın isə İsrailin modernləşdirilmiş zirehli texnikası mövcuddur. Müharibə baş verərsə, bu faktorlar öz rolunu oynayacaq. Azərbaycanın hərbi-texnki üstünlüyü necə idisə, elə də qalmaqda davam edir".

Erməni saytına müsahibəsində ona verilən sualları cavablandırarkən, erməniləri məyus edən Felqenqauer aprel müharibəsi ərəfəsində erməni hərbçilərinin hazırlıqlı olduqlarını desə də, bu hazırlığın onların imkan çərçivələrinə cavab vermədiyini bildirib: "Bir çox çatışmayan hallar var ki, onlar hələ də düzəlməyib. Əgər hərbi-texniki cəhətdən üstün olan Azərbaycan geniş miqyaslı müharibəyə başlayarsa, bunun nə qədər təsir edəcəyini demək çətindir. Əgər futbol oynayan tərəflərdən biri braziliyalı oyunçu alıbsa, ikincisi isə yox, hansı qalib gələr? Çox yəqin ki, braziliyalı oyunçu alan komanda..."

### Aleksandr Xramçixin: "Azərbaycan bunu istəyəcəksə, edəcək"

Digər Rusiya hərbi eksperti, Moskvanın siyasi və həbri analiz mərkəzinin direktor müavini Aleksandr Xramçixin isə adıçəkilən erməni saytına açıqlama verərkən, hesab edib ki, əgər Azərbaycan yenidən müharibə edərsə, müharibə faktının qarşısını heç cür almaq olmaz. "Hətta hücumların qarşısının uğurla alınması barədə iddialar olsa belə, müharibə faktının qarşısını almaq mümkünsüzdür. Əgər Azərbaycan bunu istəyəcəksə, edəcək"-deyə qeyd edən Xramçixin də erməni saytını məyus etməli olub.

Beləliklə, fakt budur ki, Ermənistan mediasında növbəti və daha ağır nəticələrlə başa çata biləcək müharibə xofu səngimir. Bu faktın özü isə, kifayət qədər qənaətə gəlməyə zəmin yaradır ki, işğalçı Ermənistanın ictimai-siyasi dairələri, sadə ermənilər və media bütün hallarda vahimə içindədir. Bu vahimənin məntiqi nəticəsi isə, işğalçıları məğlubiyyətə aparan real sübutdur.

**Rövşən RƏSULOV**

## Filippində avtobus qəzası 20 insanın ölümünə səbəb olub



Filippində baş verən yol-nəqliyyat hadisəsi nəticəsində avtobusdakı sərnişinlərin 20-si həlak olub, 24-ü yaralanıb. AZƏRTAC "The Philippine Star" nəşrinə istinadla xəbər verir ki, qəza dekabrın 25-də yerli vaxtla saat 3:30-da baş verib. Sərnişin avtobusunun Filippin ictimai nəqliyyat növü olan cipni ilə toqquşduğu bildirilir. Hadisənin başvermə səbəbləri araşdırılır.

## Səudiyyə Ərəbistanı: şahzadə və sabiq nazir girov müqabilində həbsdən buraxılıb



Səudiyyə Ərəbistanı hökuməti korrupsiya üzrə ittiham olunan 20-dən çox yüksəkvəzifəli məmuru və biznesmeni, o cümlədən sabiq maliyyə naziri və "Saudi Aramco" kompaniyasının direktorlar şurasının üzvü İbrahim əl-Əssafı həbsdən azad edib. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər veririk, azad olunanlar arasında, həmçinin şahzadə Turki bin Xalid və "Saudi Telecom" kompaniyasının sabiq başçısı Səud əl-Daviş də var. Korrupsiyada şübhəli bilinən şəxslərin istintaq orqanları ilə əməkdaşlıq etmələri və girov ödəmələri müqabilində azadlığa buraxıldığı bildirilir.

# AXCP özünü bolşevik, Müsavat isə menşevik hesab edir

*Yaxud Əli Kərimli və Arif Hacılının sonu 2018-ci ildə reallaşacaq*

***Uzun illərdir ki, davam edən və barışmaz xarakter alan AXCP-Müsavat qarşıdurmasının nə zamansa başa çatacağı kimsəyə inandırıcı görünmür. Çünki ortada olan və reallaşdırıla bilinməyən iddialar buna imkan verməyir. Hətta bu gün dünyanın müasir və inkişaf edən siyasi arenasında bu kimi partiyaların fəaliyyət göstərməsi, daha dəqiq desək, "fəaliyyət göstərmək" adı altında yalnız fərdi maraqlara xidmət etməsi onların aşkar simalarını ifşa edir. Yəni xarici siyasi dairələrdə də adıçəkilən partiyaların hər hansı bir uğura imza atmaları inandırıcı görünmür. Bu ifşa isə, artıq belə bir nəticəyə gəlməyə imkan yaradır ki, hələ ötən əsrin ikinci onilliyi zamanı bolşevizm ideologiyası ilə menşeviklik arasında cərəyan edən hadisələrin inikasını, yəni əksini cəbhəçilərlə müsavatçılarda görmək elə də çətinlik yaratmır.***

### Onlar bir-birindən xofludurlar

Lakin ortada digər maraqlı nüanslar mövcuddur. Bu kimi məsələnin təhlilini apararkən, biz, nəinki adıçəkilən partiyalar arasındakı münaqişələri, o cümlədən, həmin partiyaların uzun illərdən bəri davam edən daxillərindəki nifaqlı münasibətlərin şahidlərinə çevrilirik. Bolşevik və menşevik təfəkkürü bu partiyaların daxillərinə, artıq o qədər hopub ki, hətta sədrlər kiçik bir etirazlı hal gördükləri vəziyyətdə dərhal xoflanır, sədrlik kürsülərinin əldən veriləcəyindən ehtiyat etməyə başlayırlar.

Məsələn, Müsavatdakı etibarlı mənbədən Arif Hacılının sosial şəbəkədə açdırdığı və partiyasna aid olan qapalı səhifədə belə bir qeyd etdirdiyi bildirilir. SİTAT: "Bizə dönük çıxıb getmiş adamların yazılarına dəstək verməyi, xeyir işlərində yanlarında olmağı, barələrində təriflər yazmağı tərgidin. Nəzərə alın ki, bu yolla dönüklüyə stimul verirsiniz".

Məhz bu amil həmin təfəkkürlə, yəni meydan düşüncələri ilə hakimiyyətə can atmağın yersiz iddia olduğunu bir daha sübuta yetirir. Partiyadaxili müxalifətçiliyə dözümsüzlüyün nümayişi də, söz yox ki, belə bir nəticəyə gəlməyə kifayət qədər imkan yaradır.

### Arif Hacılı yenidən sabiq müsavatçıların hədəfində

Yeri gəlmişkən, Müsavatı tərk edib getmiş şəxslər də bu tələbi aşkarladıqdan sonra, partiyadakı adamları vasitəsiylə, onu "skrinşot" edib paylaşıblar. Bundan sonra isə, A.Hacılıya qarşı kəskin tənqid kampaniyasına başlanılıb. Keçmiş müsavatçılar Hacılını diktatorluqda ittiham edirlər. Onlar qeyd edirlər ki, partiyanı "bizim kimi düşünməyən bizdən deyil" prinsipiylə idarə edən diktator başqan, partiya daxilində növbəti parçalanmanın əsasını qoyub. Bu səbəbdən, çox yaxın vaxtlarda partiyadan kütləvi istefaların başlayacağı da iddialar arasındadır. Əbəs deyil ki, Müsavatdakı başqan müavini vəzifəsindən istefa verən Elman Fəttahın bu addımı digər müavin Tofiq Yaqublu və onun qohumu, partiyanın divan üzvü Alya Yaqublu tərəfindən dəstəkləndi. Çünki E.Fəttah partiya rəhbərliyinin, bilavasitə avtoritar idarəçiliklə məşğul olduğunu, demokratik dəyərlərin isə, ümumiyyətlə, olmadığını bəyan etmişdi.

### Əli Kərimli də bənzər vəziyyəti yaşayır - Gözəl Bayramlı və Fuad Qəhrəmanlı istefa verib, əllərində olan ciddi kompromatları ictimailəşdirəcəklər

Ancaq qeyd edildiyi kimi, dağıdıcı müxalifətdə bənzər aqibəti yaşayan, yalnız A.Hacılı deyil. AXCP sədri Əli Kərimli də eyni halı yaşamaqdadır. Çünki ölkə müxalifətinin sıradan çıxmasında əsas rol oynayan bu məsələnin ilk yaradıcıları Ə.Kərimli sonradan həmin keçici sindromu "liderlik" iddiasında olan digər partiya sədrlərinə də yoluxdurub. Əlbəttə ki, bu tipli ambisioz mövqelər cəmiyyətdə müxalifətə qarşı itirilmiş inamı, ümumiyyətlə, yox edir, nəticədə, digər müxalifətin daha da dərindən parçalanması prosesi sürətlənir. Həmçinin, AXCP-dən sızan məlumata görə, artıq Ə.Kərimlinin qurbanlarına çevrilmiş müavinləri Gözəl Bayramlı və Fuad Qəhrəmanlı da çox yaxın zamanlarda istefaya gedəcəklərini bəyan edəcəklər. Onların bir sıra arqumentli ittihamları ilə yanaşı, Ə.Kərimliyə aid kompromatlarının da olduğu bildirilir.

AXCP sədri ilə bağlı daha bir maraqdoğurucu ittihamı irəli sürmək mümkündür. Məsələn, AXCP ilk partiyalardandır ki, "Yurd" qrupunun rəhbəri olmuş Kərimlinin ambisiyaları üzündən, həmin təşkilat parçalanmağa başladı və ölkədə parşalanmış partiyadan digər partiyaların yaranmasına səbəb olan vəziyyət yaşandı. Daha dəqiqi, partiyaların əksəriyyətinin digərilərinin parçalanmasından yaranması ənənəsinə start verildi. Nəticədə, bir partiya digərini rəqib kimi deyil, düşmən kimi görür. Bu halda isə, hansısa məqsəd üçün bir yerə toplaşmağa imkan verilmir. Son günlər biz bir daha həmin vəziyyəti yetərincə müşahidə etmişik.

Nəticə etibarilə, bir-birilərini çıxdaş etməkdən ötrü başladılmış dava-şavalar - Əli Kərimli, Arif Hacılı və bu ambisiyanın daşıyıcısı olan digər bəzi partiyaların fəaliyyətləri müxalifətin sonunu çatdırıb. İndi isə öz sonları yetişib və xüsusilə, 2018-ci ildə keçiriləcək prezident seçkiləri, necə deyərlər, naftalin iyi verən həmin şəxslərin uğursuz aqibətlərini reallaşdıracaq.

**Rövşən RƏSULOV**

# Leyla və Arif Yunuslar vətən xaini kimi damğalanmalıdırlar

*Çingiz Qənizadə: Leyla Yunus ermənilərlə qohumluğu olan bir şəxsdir"*

***Azərbaycana anormal iddialarını diktə etmək istəyən qüvvələrin bir projesi də Leyla və Arif Yunuslardır. Görünür, bu cütlüyün satqın simaları kimlərinsə mövqeyi ilə üst-üstə düşür. Mühacir həyatı seçmiş Yunusların fəaliyyəti, mövqeyi və fikirləri biri digərini inkar edən təkziblərdən ibarətdir. Özlərinə lazım olduğu təqdirdə bir formada, lazım olmadığında digər bir şəkildə şərh etmək xüsusiyyətləri bunlara xas olan sifətlərdir.***

### Yalvararaq hakimiyyətdən əfv diləyənin ölkədən qaçandan sonra özünü fədakar və qürurlu göstərməsi gülüncdür

Amsterdamın və Praqanın rahat bir guşəsində özünə yer edib, başqalarını mahiyyətini təyin edə bilmədiyi mübarizəyə səsləməklə özünü fədakar kimi qələmə vermək gülüncdür. Qanundan, qaydadan və nəhayət, vətəndən qaçmaq hara, fədakarlıqdan, qorxmazlıqdan dəm vurmaq hara. Məkrli qüvvələrə sığınan L.Yunus və onun həyat yoldaşı A.Yunus belə mübarizliyi kimə tərənnüm edirlər? Fədakarlığı, Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə azadlıqdan məhrum edilərkən, həbsxana həyatı yaşayarkən niyə nümayiş etdirmirdi bu Yunuslar? O zaman özünü xəstəliyə vurub, ağlayıb ağı deyərək, qızının tək qaldığını, ailəsinin çıxılmaz vəziyyətdə olduğunu nəzərə almaqla ona rəhm edilməsini, mərhəmət göstərilərək əfv edilməsini diləyən L.Yunus deyildimi? Bir vaxt məhbus həyatı yaşadığı zaman ölkə rəhbərliyinə yalvarışla müraciət edərək, özünün çox aciz və çətin durumda qaldığını və mərhəmətə ehtiyacı olduğunu bildirən də L.Yunus idi. Məhbusluq zamanı niyə yox idi, bu nümayiş etdirməyə cəhd etdiyi qürur hissi? Yoxsa, qaçıb, aradan çıxandan sonra cəsarətləndi, qurura sahib oldu?

Əlbəttə ki, nə qədər səy göstərib özünü fədakar kimi təqdim etməyə çalışsa da Yunusların fəaliyyəti mənasızdır və ümumiyyətlə, bütün səyləri əbəsdir. Əgər bu mühacirlər, elə zənn edirlərsə ki, fikirləri kimin üçünsə maraqlıdır və çıxışlarına dəyər verilir, bərk yanılırlar. Dünyada başqa ölkələrin də o qədər mühacirləri var ki, hər biri öz xəstə təxəyyülünü ictimailəşdirmək fikrinə düşərsə, bu, heç bir müstəviyə sığa bilməz. Belə bir faktdan söhbət belə gedə bilməz və vətənini, ölkəsini, dövlətini və milli maraqlarını satan Yunusların dünyada analoqu yoxdur. Ola bilsin, yaşam çətinliyi, müharibə şəraiti, vətəndaş qarşıdurmaları səbəbindən hansısa ölkə vətəndaşları digər ölkələrə sığına, özünün və ailəsinin təhlükəsizliyi naminə mühacirət edə bilər. Buna dünya içtimaiyyəti də normal yanaşır. Lakin asayişin bərqərar olduğu, iqtisadi inkişafın ən dinamik artım tempi ilə getdiyi, sosial durumun yüksək olduğu bir ölkədən mühacirət edənlərə münasibət birmənalı deyil. Əlalxüsus, öz ölkəsi barədə dezinformasiyalar yayaraq, nüfuzdan salmağa cəhd edənlər, nəinki aid olduğu dövlətin vətəndaşları arasında, hətta qlobal miqyasda nifrətlə qarşılanır.

### Yunuslar Azərbaycanın düşmənlərinin qulluğundadırlar

Avazında xəyanətə köklənmiş notlar olan bu ünsürlər, Azərbaycana düşmən mövqedə olan qüvvələrin, ələlxüsus ermənilərin, onların havadarlarının diqqətindən kənarda qala bilməz. Əgər kiminsə onların tərəfində olduğunu düşünürlərsə, yanılırlar. Çünki Yunuslar özləri sadaladığımız kimlərinsə tərəfində, daha dəqiq desək, ölkəmiz əleyhinə məkrli niyyəti olan qüvvələrin, bir sözlə Azərbaycanın düşmənlərinin qulluğundadırlar. Belə satqınlar, əslində, vətənə



xəyanətdə təqsirli bilinərək, barələrində həbs cəzası təyin olunmalı, xain kimi damğalanaraq, azadlıqdan məhrum edilməlidirlər. Erməni dəyirmanına su tökən, vətənimizi işğal edən təcavüzkarlara xidmət edən Leyla və Arif Yunuslar üçün qanunsuz sahibkarlıqla məşğul olma, vergidən yayınma, dələduzluq kimi ittihamlarla mühakimə çox yüngül cəzadır və onlar vətən xaini kimi damğalanmalıdırlar. Avropanın bir guşəsində daldalanıb hədyanlar söyləyənlər qanun qarşısında cavab verməkdən azaddırlar, yoxsa özlərini toxunulmaz hesab ediblər? Xüsusilə, nəzərə çatdırmaq yerinə düşərdi ki, harda olmasından asılı olmayaraq, insanlar qanun qarşısında cavabdehdirlər. Vətəndən qaçmaq qanundan da qaçmaq anlamına gələ bilməz.

Milli Məclisin deputatı, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bizimlə söhbətində Leyla Yunusun satqın və xəyanətkar olduğunu bildirdi: "Hesab edirəm ki, Azərbaycan xalqına heç bir aidiyyəti olmayan, canı yanmayan, millətini və dövlətini sevməyən bir insanın Azərbaycana hər hansı formada ayağının dəyməsi mənim üçün arzuolunmazdır. Yaxşı olar ki, heç onların Azərbaycana bir də ayaqları dəyməsin. Çünki bu yaxınlarda onun vəkili tərəfindən nəşr olunmuş kitabla bağlı mən bir neçə detalı çıxışımda dedim. O, qızına tövsiyə edir ki, azərbaycanlılardan uzaq ol. Onlara heç vaxt inanma. Birində də deyir ki, mən yəhudiyəm, Amerika yəhudi lobbisinə mən çox da uzaq deyiləm. Amma bizim bildiyimizə görə Leyla Yunus ermənilərlə qohumluğu olan bir şəxsdir. Həmişə də şəxsi maraqları üçün çalışıb. Ona görə, hətta hüquqi prosedurların belə işlədiyi bir məqamda da onun Azərbaycana gətirilməsinin tərəfdarı deyiləm. Çünki nə qədər bu cür insanların ayağı Azərbaycana dəyməz, Azərbaycan bir o qədər pak və təmiz olacaq. Azərbaycan İnterpolun üzvüdür lazım gəldikdə, axtarışa verilə bilər. İnterpolun xətti ilə tutulub Azərbaycana təhvil verilə bilər. Amma belə birisinin Azərbaycana təhvil verilməsini inandırıcı görmürəm. Çünki ona arxa duranlar, Azərbaycanı sevməyən quvvələrin böyük əksəriyyəti Avropada söz sahiblərindəndir."

**İnam HACIYEV**

# Azərbaycan xalqının oyun-tamaşa ənənələri

***“Kosa-gəlin”, “Maral oyunu”, ‘Tənbəl qardaş”, “Kaftar küs”, “Tapdıq çoban”, “Hacı gəldi”, “Şələ oyunu”, “Şah Səlim”, “Qaragöz”, “Keçəl pəhləvan” və digər oyun-tamaşaları da kilim arasında, məhz bu ifaçılıq ənənələri əsasında göstərilirdi.***

“Tənbəl qardaş” el-oba arasında “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş” kimi də tanınır. Adətən, meydanda oynanılan bu tamaşada zəhmətə xor baxan, müftəxorluqla baş girləyən kiçik (tənbəl) qardaş tənqid edilir, öz əməksevərliyi və çalışqanlığı ilə fərqlənən böyük qardaşa haqq qazandırılır. Tamaşanın sonunda peşman olan və tənbəllik etməyəcəyinə and içən kiçik qardaş təsərrüfata şərik edilir.

“Kilimarası”nın repertuarına daxil olan “Tapdıq çoban”ın süjetini ailə-məişət məsələləri, mənəvi-əxlaqi problemlər təşkil edir və məzəli hadisələrdən ibarət bu oyun-tamaşada yüngül xasiyyətli xanımlar gülüş hədəfinə çevrilirdi.

Etnoqraf-alim Tofiq Babayev yazır: “Müqəvva-kuklaların geyimi sadə olurdu. Kişilərin başına papaq qoyulur, belinə qurşaq bağlanır, ayaqlarına çarıq-corab geydirilirdi; qadın kuklalara isə büzməli-qırçınlı əlvan və yaraşıqlı don geydirilir, başlarına yaylıq bağlanır və bəzək şeylərindən də istifadə edilirdi.

Müəyyən əxlaqi və tərbiyəvi əhəmiyyətli əyləncə-məzhəkələrdən ibarət “Kilimarası” oyunlarında həyatda nəzərə çarpan eybəcərliklər, mənfi adət-ənənələr səhnə yolu ilə nümayiş etdirilir, tənbəllər, istismarçılar və müftəxorlar gülüş hədəfinə çevrilirdi”.

Tədqiqatçılar xalq oyun və əyləncələrinin, mərasim şənliklərinin əksəriyyətində hərəkət, dialoq, aktyor oyunu kimi teatr elementlərinin əhəmiyyətli yer tutduğunu və xalq teatrının yaranması üçün zəmin olduğunu qeyd edirlər. Qədim tarixə malik “Sayaçı”, “Novruz”, “Kövsəc”, “Kosa-kosa”, “Xanbəzəmə”, “Kilimarası” “Qaravəlli”, “Hoqqa oyunu” və s. oyun-tamaşaların-da möhkəm süjet, bitkin və aydın xarakter, dramatik hərəkət, çox əlvan və rəngarəng ifadə vasitələri vardır. Belə oyun və əyləncələr hər hansı ailə-məişət epizodlarını cəmləşdirir, xalq dramının və xalq teatrının əsasını qoyur.

Oyun və əyləncələr xalqımızın el şənliklərində, özünün zənginliyi və rəngarəngliyi ilə diqqəti cəlb edən ənənəvi toy mərasimlərində də özünəməxsus maraqlı yer tutur. 40 gün-40 gecəlikdən tutmuş, ən azı, 3 gün-3 gecəyədək davam edən toy məclislərimiz oyun və əyləncələrsiz keçməzdi. Çünki toy xalq həyatı ilə bağlı bütün digər ictimai hadisələrdən zənginliyi ilə fərqlənir. Çox qədim tarixli toy xalq məişət-əyləncələrinin ən kütləvisi və məşhurudur. Toy adi evlənmə mərasimi çərçivəsindən çıxaraq, xüsusilə, kənd yerlərində, ictimai-mədəni bir əyləncəyə çevrilmişdir. Orada nümayiş etdirilən əyləncə və oyunlar çox rəngarəng və zəngindir.

Məlumdur ki, xalq həyatında müstəsna mahiyyət daşıyan ənənəvi toy mərasimi bir neçə mərhələyə bölünür, yəni qızbəyənmədən başlayaraq, təzə gəlinin toydan sonra üzə çıxmasınadək davam edirdi. Bu mərasimin ayrı-ayrı mərhələsinə uyğun olaraq, müəyyən adət-ənənələr, xüsusi oxumalar, oyunlar, gülməli, maraqlı, şən əyləncələr keçirilərdi və bu oyun və əyləncələr, adətlər, ayinlər, sözsüz ki, onların hər birinə aid lokal məxsusiliklə Azərbaycanın hər yerində mövcud idi. Etnoqrafik materiallara əsaslanaraq, demək olar ki, Azərbaycanın çox yerində toy məclisləri öz məzmun və repertuarına görə də, biri-birilərindən fərqlənir. Kişi toylarında igidliklərini nümayiş etdirmək cəhdində olan cavanlardan fərqli olaraq, qadın və qızların məclisləri xüsusi rəngarəng məzmunu ilə seçilərdi. Ağızdan-ağıza ötürülən bayatılar, mahnılar oynayanları daha da vəcdə gətirər, onların bəhs-bəhsinə səbəb olardı. Bir qayda olaraq, qızgəlin toylarında oyun və əyləncələrə üstünlük verilərdi. Bu oyun və əyləncələr musiqi, mahnı və rəqslərlə müşayiət olunardı. Özlərini müxtəlif dona salan, maraqlı el oyunları nümayiş etdirən xanımlar öz məharətləri ilə sanki kiçik səhnəciklər yaradır, toy şənliklərini daha da rövnəqləndirirdilər. Naxçıvan bölgəsində “Haxışta”, Lənkəranda “Halay”, Zaqatalada “Tyğay Məlik”, Şirvanda “Tello”, “Nənəcan” və s. halaysayağı oyunlar qızgəlin toyları üçün səciyyəvi idi. Nişan günü qız-gəlinlər əl çala-çala oynayardılar. Bir nəfər oxuyar, qalanları isə “xub oyna”, “xub oyna” deyə-deyə dövrə vurardılar.

> “Adətə görə, ənənəvi toylarda “Paltarkəsdi”, “Xınayaxdı” (“Xına qoyma”) mərasimi keçirilirdi. Toy şənliyi ərəfəsində qız evində keçirilən mərasim axşamdan başlayıb və sübhədək davam edirdi. Bu mərasimdə gəlin ətrafında mahnılar oxunur, şux zarafatlar, məzəli səhnəciklər ifa olunurdu. Gəlinin şəninə mahnılar oxuyur, ona xoşbəxtlik arzulayırdılar. “Xınayaxdı” gecəsində bəyin şücaətindən və qeyrətli oğul olmasından söhbət açardılar. Oğlan evindən qız-gəlinlər də “Xınayaxdı” mərasimində iştirak edirdi”

T.Babayevin fikrincə, “Haxışta” oyununda, adətən, qız-gəlinlər dəstə tutar, bir nəfər ailə, həyat-məişət və məhəbbət mövzularında bayatı formasında şeirlər deyər, dəstə isə hər misradan sonra “Haxışta” sözünü təkrar edərək, əl çala-çala oynayar və əylənərdilər. Buna çox vaxt “haxışta getmək” deyirlər.

Qax rayonunun Sarıbaş kəndində qələmə alınmış “Tuğay Məlik” oyunu da çox maraqlıdır. Qaydaya görə, bu oyunda da iştirakçılar iki dəstəyə bölünər, 20-30 nəfərdən ibarət olan dəstələr sıra ilə qarşı-qarşıya durardı. Birinci dəstə qaval və əl çala-çala rəqs edər və oxuya-oxuya o biri dəstəyə yaxınlaşardı. Oyunda böyük bir canlanma və şux əhvalı-ruhiyyə yaranardı.

Birinci dəstə şeiri oxuyub, geri qayıdardı. İkinci dəstə “öz” şeirini oxuya-oxuya birinci dəstəyə tərəf yaxınlaşar və cavab olaraq oxuyardı. Oyun beləcə davam edərdi. Ənənəyə görə, cavab sözü tapmayan dəstənin bir üzvü o biri dəstəyə, yəni qalib dəstəyə keçərdi. Üzvünü itirmiş məğlub dəstə “Ay pəri” adlı mahnı ifa edərdi. İştirakçıların itirmiş dəstə oyunu uduzmuş sayılırdı. Onun son iştirakçısı qalib dəstədən xahiş bağışlanmasını edərdi.

Qalib dəstə bir nəfəri geri qaytarardı. Bu iki iştirakçı yuxarıdakı bəndi təkrar edərdi. İtirilmiş iştirakçıların hamısı geri qaytarılanadək, oyun davam etdirilərdi. Üzvlərin sayı bərabərləşəndən sonra, oyun yenidən başlanardı. “Tuğay Məlik” mahnısını vaxtilə toy gecəsi, gəlin gərdəyinin qabağında da oxuyarmışlar.

Şamaxıda toylarda “ağcadaban” adlanan “məsxərəçilər” maraqlı səhnəciklər göstərərdilər. Yardımlıda və digər bölgələrdə “Günü-günü” əyləncə səhnəciyini oynamaq geniş yayılmışdı. Gülüş doğuran bu səhnəciyin məzmununu iki gününün bir-birinə söz atması, davranışı, mübaliğəli görkəmləri və mimikaları təşkil edirdi.

Qız-gəlinlərin toylarında “Gəlinbacı” oyunu icra olunardı. Gəlin köçən gün qızlar onun başına toplaşır və əllərinə dəmir sinilər alıb, gəlinin dilindən mahnı oxuyub, ona sataşırlar.

T.Babayev yazır: “Adətə görə, ənənəvi toylarda “Paltarkəsdi”, “Xınayaxdı” (“Xına qoyma”) mərasimi keçirilirdi. Toy şənliyi ərəfəsində qız evində keçirilən mərasim axşamdan başlayıb və sübhədək davam edirdi. Bu mərasimdə gəlin ətrafında mahnılar oxunur, şux zarafatlar, məzəli səhnəciklər ifa olunurdu. Gəlinin şəninə mahnılar oxuyur, ona xoşbəxtlik arzulayırdılar. “Xınayaxdı” gecəsində bəyin şücaətindən və qeyrətli oğul olmasından söhbət açardılar. Oğlan evindən qız-gəlinlər də “Xınayaxdı” mərasimində iştirak edirdi. Məclisdə “Şəbihçıxarma” adlı məzhəkəli oyun çıxarırdılar”. Cavan gəlin və qızlardan bir neçəsi qiyafələrini dəyişdirib, üz-gözlərini gizlədərək, məclisi şənləndirərdilər. Bəzən özlərinə bığ-saqqal qoyub kişilər kimi hərəkət edir, yerişlərini dəyişdirir və onları yamsılayardılar. Milli toyun mühüm əyləncələrindən biri olan “Xınayaxdı gecəsi”nə çox zaman qadın xanəndə və çalğıçıları gətirilərdi. Xanəndə oxuyarkən qızlar rəqs edərdilər. Rəqslər bəzən məzəli-əyləndirici tamaşa səciyyəsi daşıyır və özlərinə məxsus sözləri az olur. Xınayaxdı gecəsi qadınlar kiçik tamaşalar da göstərərdilər”.

Həmin gecə gəlinin əlinə-ayaqlarına xına qoyardılar, sonra mərasimdə iştirak edən qız-gəlinlər də gəlinin xınasından əllərinə yaxardılar. Burada demək-gülmək, zarafat xarakteri daşıyan müxtəlif oyunlar icra olunar, ümumiyyətlə, gecə səhərədək davam edən mərasimdə şən əhval-ruhiyyə yaradılardı. Qədim təsəvvürlərə görə, xına gecəsindən gəlinin səadəti - xoşbəxt günləri başlayardı.

T.Babayevin qeyd etdiyi kimi, kişi toylarının da özünəməxsus maraqlı oyun və əyləncələrlə, adətlərlə, oxumalarla zəngin məqamları olardı. Ənənəvi toy mərasiminin təntənəli mərhələlərindən biri gəlin aparmadır. Gəlin apararkən, cıdır təşkil edərdilər. Xalq əyləncələri içərisində cıdır daha təmtəraqla qeyd olunardı. Bunun üçün ciddi hazırlıq görərdilər. Cıdırda vacib olan nə varsa qaydaya salınardı və şərtlər əvvəlcədən müəyyən edilərdi. El igidləri, el xatunları bəzənib-düzənib cıdıra gələrdilər, çalıb-oxuyub şənlik edərdilər. Elin şir ürəkli, nər biləkli neçə-neçə igidi şahə qalxan atlarını cıdıra hazırlardılar. Hər elin-obanın, hər tayfanın, hər nəslin öz cıdır yerləri, eyni zamanda, cıdıra çıxanları olmuşdur.

“Cəngi”nin qanı coşduran musiqi sədaları altında cıdır oyunu başlanardı. Cıdır iştirakçılarından kimin atı müəyyən məsafəni daha tez qət etsəydi, o, yarışın qalibi sayılardı. Adətə görə, bəyin anası ona toy xonçası təqdim edər, hədiyyə verər, atın boynuna isə qırmızı parça və ya kələğayı bağlardı.

Toy şənlikləri zamanı qeyd olunan bu atçapma (at səyirtmə) əyləncəsi Azərbaycanın cənub-qərb bölgəsində “Gərdənqaçırdı”, Şəki-Zaqatalada “Sürəl”, Abşeronda “Pərdəapardı” adlanır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 26 dekabr


## Hansı məhsulların tərkibində xolesterin çoxdur?



Əgər hər bir insan, xolesterinin hansı məhsullarda çox, hansılarda az olduğunu bilsə, o zaman orqanizmdə onun səviyyəsini kontrol edərək,özü orqanizminin infark və insultdan profilaktikasınıtəmin edə bilər. Bu məlumatı ən əsas ürək-damar xəstəlikləri və arteriyal təzyiq atlamaları olan insanlar üçün vacibdir. Rasionu korreksiya edərək, əhvalınızı xeyli yaxşılaşdıra bilərsiniz. Xolesterin - bir çox daxili proseslərin baş verməsi üçün orqanizmin istehsal etdiyi çətin kimyəvi birləşmədir. Kənardan onun orqanizmə sadəcə 1/4 hissəsi daxil, və o normadan çox olduqda qanın tərkibi dəyişir. Qan qatı olur, bunun nəticəsində isə qan laxtaları əmələ gəlir, onlar isə damar, arteriya və venaların divarlarına çökürlər. Onlar tıxanaraq, keçilməz olurlar.

Yadda saxlayın ki, sağlamlığınız sizin əlinizdədir. Rasionunuzu düzgün qurduqda, siz bahalı medikamentlərdən azad ola bilərsiniz. Lakin siz artıq təhlükə qrupundasıznızsa, o zaman xolesterinin səviyyəsini kontrol etmək üçün bəzi məslƏhətlərə əməl etməlisiniz:

- yağ və marqarinin qəbulu
- yağlı ət növləri, paştetlər, şorabalar, hisdə qurudulmuş məmulatlar və konservantlar
- qatılaşdırılmış süd, yağlı kəsmik və əridilimiş pendirlər
- paçkada olan hazır suplar
- qızardılmış kartof
- un məmulatları
- kako, qəhvə, mayonez, spirtli içkilər və ədviyyatlar

Digər qida məhsullarında da təbii ki xolesterin vardır, lakin səviyyə baxımından azdlr. Belə ki, elə məhsullar da vardır ki, onların tərkibində elə maddələr vardır ki, onlar xolesterinin səviyyəsini aşağı salıb normallaşdıra bilir. Qara gavalı, badam, püstə, qoz, paxlalılar, meyvə və tərəvəzlər xoleterinlə mübarizədə sizə real yardımçı ola bilərlər. Həmçinin dietoloqların fikrinə görə, avokado, kivi, sitrus meyvələri və kök xolesterinin səviyyəsini bir neçə dəfə aşağı salmağa qadir məhsullardır

## Təbəssümlə yaşamaq ömrü uzadır...

Xoş ovqat və müsbət əhval-ruhiyyənin əhəmiyyəti heç kəs üçün təzə məlumat deyil. Gülər üzlə və təbəssüm içində həyat sürmək orqanizmin sağlamlığında mühüm rol oynayır. Qədim təbiblər gülüşlə müalicəyə yüksək dəyər verərək onun gözdəyməni və cadunu qovduğunu, şər qüvvələrlə mübarizə apardığını hesab edirdilər. Yunan filosofu Aristotel gülüş haqqında böyük bir elmi əsər yazıb. Orta əsr yazıçısı Əbu Osman Əl-Cahizın əsərlərində gülüş haqqında dəyərli fikirlər əksini tapıb.

Gülüşlə müalicənin mümkünlüyünü müasir həkimlər də etiraf edirlər. Britaniya və hind həkimləri gülüş vasitəsilə bir sıra xəstəlikləri, hətta kişilərdə impotensiyanı müalicə etməyin mümkün olduğunu söyləyirlər. Həmin xəstələr üzərində aparılan təcrübə nəticəsində onların yarıdan çoxu şəfa tapıb. Kliniki təcrübələr nəticəsində aydın olub ki, gülüş immuniteti artırır və xəstəlikdən sonrakı bərpa prosesini sürətləndirir.

Gülüş orqanizmə masaj qədər müsbət təsir göstərərək qan dövranını və bütün orqanların işini yaxşılaşdırır. Astma və bronxitdən əziyyət çəkənlər üçün ondan yaxşı məşğələ yoxdur. Gülərkən qana daha çox oksigen daxil olur və nəfəsalma yaxşılaşır. Bir neçə dəqiqəlik gülüş qan təzyiqini aşağı sala bilər, ona görə də komediyaya və yumoristik verilişlərə baxmaq, lətifəyə qulaq asmaq faydalı hesab olunur. Gülüş piyin yığılması və qanın çoxalmasına kömək edir. Şən və gülərüz olanlar çox az əsəbiləşir, depressiyaya düşmür və uzun ömür sürürlər.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və ÇH ixtisası üzrə II kurs tələbəsi Məmmədli Fərxan Fuad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya fakültəsinin IV tələbəsi Məmmədov Murad Mohübbət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Menecment ixtisası üzrə II kurs magistri Bayramlı Çinarənin adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

## "Sərhədçi" komandası çövkən milli atüstü oyunları üzrə "Prezident Kuboku" turnirinin qalibi olub




Dekabrın 24-də Binə Atçılıq Mərkəzinin qapalı manejində keçirilən çövkən milli atüstü oyunu üzrə "Prezident Kuboku" turnirinə yekun vurulub. AZƏRTAC xəbər verir ki, turnirin sonuncu günündə oyunları Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Azərbaycan Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev izləyiblər. Bürünc medallar uğrunda "Ağcabədi" və "Ağstafa" komandaları mübarizə aparıb. Oyunda 3:0 hesabı ilə qalib gələn "Ağcabədi" bürünc medala layiq görülüb. Final qarşılaşmasında isə "Sərhədçi" və "Polad" komandaları qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən oyunda "Sərhədçi" komandası 2:1 hesabı ilə qalib gələrək çempion adını qazanıb. Qaliblərə kubok, medal və diplomlar təqdim olunub.

## Gimnastlarımızdan beynəlxalq turnirdə 3 medal




Moskvada keçirilən kişi və qadın idman gimnastikası üzrə Mixail Voronin adına kubokda Azərbaycan təmsilçiləri 3 medal əldə ediblər. SİA-nın məlumatına görə, qadın idman gimnastlarımızdan Marina Nekrasova və Yuliya İnşına ilk olaraq komanda hesabında fərqləniblər. Onlar yalnız Rusiya və Özbəkistan komandasından geri qalaraq 95.950 xalla turnirin bürünc medalına sahibləniblər.

Ayrı-ayrı alətlər üzrə finallarda isə Marina şəxsi hesabına da medal yazdırmağı bacarıb. Sevimli proqramı olan sərbəst hərəkətlərdə çıxışı gimnastımıza gümüş medal (12.266 xal) qazandırıb. Növbəti uğurlu çıxışını Marina gimnastika tirində nümayiş etdirib. Bu alətdə icrasına görə hakimlərdən 12.433 xal alan idmançımız ikinci bürünc medalını qazanıb. Heyətimizin gənc təmsilçisi Samirə Qəhrəmanova isə öz yaşıdları arasında çoxnövçülükdə 23-cü yerdə qərarlaşıb. Kişi gimnastlar arasında ölkəmizi Cavidan Babayev, Timur Bayramov və Səməd Məmmədli təmsil ediblər. Ən yaxşı nəticəni Cavidan sərbəst hərəkətlərdə, Səməd isə turnikdə göstərib. Hər iki idmançımız final çıxışlarını 8-ci yerdə bitiriblər.

## "Keşlə" yeni baş məşqçisini rəsmən açıqladı



"Keşlə" futbol klubunun Müşahidə Şurasının iclası keçirilib. SİA-nın məlumatına görə, komandanın yeni baş məşqçisi rəsmi şəkildə açıqlanıb. Qəsəbə klubuna ukraynalı Yuri Maksimov təyin edilib. O, bu vəzifədə Ramiz Məmmədovu əvəzləyib. R.Məmmədov isə klubun idman direktoru vəzifəsində çalışacaq.

## Buffon: Hər zaman "Yuventus"un şərəfini qorumağa hazıram




İtaliya yığmasının şərəfini qoruyan Canluici Buffonun mövsümün sonunda futbolu tərk edib təqaüdə yollanacağı gözlənilir. AZƏRTAC yerli KİV-lərə istinadla məlumat verir ki, əfsanəvi qapıçı futboldan heç vaxt getməyəcəyini, hətta 80 yaşı olsa belə istər "Yuventus", istərsə də İtaliya milli yığması üçün geri dönə biləcəyini söyləyib.

## "Beşiktaş"dan Arda Turan açıqlaması




"Beşiktaş"ın prezidenti Fikrət Orman "Barselona"nın futbolçusu Arda Turanı transfer edəcəkləri ilə bağlı yayılan iddialara münasibət bildirib. Qol.az-ın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, o, 30 yaşlı yarımmüdafiəçini almağı düşünmədiklərini deyib: "Arda bəyəndiyim oyunçudur. Türkiyənin önəmli markalarından biridir. Komandamızda Ardanın oynadığı mövqedə oyunçu çoxluğu var. Ardanın "Beşiktaş" formasını geyinməsini itəyərm. Amma hazırda o, gündəmimizdə yoxdur". Qeyd edək ki, A.Turanın "Beşiktaş"la danışıqlarının yekunlaşmaq üzrə olduğu iddia olunurdu.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500